# Novruz bayramınız mübarək!






Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 11 (24.497)

20 mart 2026-cı il, cümə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Əbədi zəfər tonqalımız



## Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, XII əsr Azərbaycan memarlığının görkəmli nümunəsi olan Möminə xatun türbəsinin kompleks bərpası və konservasiyası işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9,566.0 min (doqquz milyon beş yüz altmış altı min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 16 mart 2026-cı il*

1990-cı ilin soyuq və çətin qışından sonra gələn baharda doğulan günəş ürəyimizi isitməyə macal tapmamış torpağımızda yanan iki tonqalın atəşi qəlbimizi kül etdi. Bu elin insanları Şuşaya yağan qarın soyuğunda üşüyəndə səngərdə dayanan əsgərin qəlbindəki intiqam atəşi daha da alovlanırdı. Biz illərlə Qarabağda qalanan iki tonqalın harayına çatmağa can atdıq. Həsrətlə baxdıq o yanan tonqallara... Ağdamın, Füzulinin torpağını əkib-biçib taxılının çörəyini yeyən düşmənin torpağın bağrına od vurduğunu lap yaxından izləmək məcburiyyətində qalanda gözümüzdən axan yaş qəlbimizdəki alovu söndürə bilmədi.

Bu xalq nə az, nə çox – 30 il Novruzu qarşılayanda "Gün o gün olsun ki, gələn il bu vaxt Qarabağda tonqal qalayaq" oldu arzusu. Şuşanın sinəsində bahar çiçəkləri açılmamış solanda, Ağdamın xarabalıqları arasında qaranquşlar yuva qurmağa yer tapmayanda, Həkəri lal axanda, Laçın quşu qanad salanda, Cəbrayılın çinar meşələri nəfəssiz qalanda bu xalq öz Vətənindən öz yurduna həsrətlə baxdı.

Səhifə 3

# Böyük Qayıdış:

## postmüharibə dönəmi üçün nümunəvi beynəlxalq model




Səhifə 4

# Naxçıvan Türk dünyasının bütövlüyünün rəmzinə çevriləcək



Kiçik Qafqazın cənub-qərbində yerləşən, qədim tarixə, zəngin mədəniyyətə və strateji əhəmiyyətə malik qədim türk diyarı Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. “Şərqin qapısı” adlandırılan bu diyar Türkiyə və İranla həmsərhəddir, Türk dünyasına açılan qapı və İslam mədəniyyətinin mərkəzlərindən biridir.

Birinci Dünya müharibəsindən sonrakı mərhələ dünyanın yenidən bölüşdürülməsi və kataklizmlər dövrü kimi tarixdə qaldı. Çar Rusiyasının dağılması, onun yerində müstəqil dövlətlərin yaradılması fonunda Cənubi Qafqaz və Azərbaycan dünyanın diqqət mərkəzində olan bölgəyə çevrildi. ABŞ Prezidenti Vudro Vilsonun ermənilərin təsiri altında Qərbi Azərbaycan torpaqlarında yaradılmış Ermənistan dövlətinin ərazilərini genişləndirmək cəhdləri və ermənilərin soyqırımına məruz qalması haqqında təbliğat nəticəsində 1919-cu ilin yayında əraziyə ABŞ-dən general-mayor Ceyms Harbordun rəhbərliyi altında böyük bir heyət göndərildi. Sözügedən heyətin həm Anadoluda, həm Qərbi Azərbaycanda, həm də Naxçıvanda və Azərbaycanın digər bölgələrində apardıqları araşdırmalardan sonra hesabat hazırlandı. Yeri gəlmişkən, general Harbord 1919-cu il oktyabrın 5-də aralarında 3 nəfər generalın da olduğu 18 nəfərlik heyətlə Bakıya gəldi, Baş nazir N.Yusifbəyli və hökumətin digər üzvləri ilə geniş söhbətlər apardı. General-mayor Ceyms Harbordun hazırladığı hesabat əsasında həqiqətlər üzə çıxdı. Ermənilərin burada soyqırımına məruz qalması deyil, əksinə, müsəlman və türk əhalisinin kütləvi şəkildə qətlə yetirildiyinin şahidi olduqlarını qeyd etdilər.

1918-ci ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin və Osmanlı hökumətinin dəstəyi ilə Naxçıvan, İğdır, Ordubad və Şərur-Dərələyəz mahalları, həmçinin Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və digər əraziləri əhatə edən Araz-Türk Cümhuriyyətinin elan edilməsi də Naxçıvanın nə dərəcədə əhəmiyyətli bir strateji mövqedə olmasının göstəricisi idi. Çox qısa müddətdə mövcud olmuş bu respublika bölgədə yaranmış vəziyyətlə bağlı öz fəaliyyətini dayandıraraq 1918-ci il noyabrın 30-da qurulmuş Cənub-Qərbi Qars Cümhuriyyətinin, onun süqutundan sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil olmuşdur.

Hələ XX əsrin əvvəllərində ABŞ Prezidenti V.Vilson Cənubi Qafqazda möhkəmlənmək və Naxçıvanı ermənilərin nəzarətinə vermək planını gerçəkləşdirmək üçün Naxçıvan və Şərur-Dərələyəz ərazisində ABŞ general qubernatorluğu yaratmağa çalışırdı. General qubernatorluğun yaradılması Qafqazda nüfuz dairəsi qazanmağa çalışan ABŞ-nin əlverişli strateji mövqedə yerləşən Naxçıvan bölgəsində möhkəmlənmək planları Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdikləri amerikalı polkovnik Vilyam Haskelin 1919-cu il oktyabr ayının 29-da Naxçıvanda Amerika general-qubernatorluğunun yaradıldığını bildirmiş və bu məqsədlə 9 maddədən ibarət qərar vermişdi. “Haskel layihələri” adlandırılan bu sənəddə Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əlahiddə bitərəf zona elan edilməsi və bu ərazilərdə elan olunmuş Naxçıvan general-qubernatorluğunun yaradılması nəzərdə tutulurdu.

V.Haskelin Azərbaycan və daşnak Ermənistanı hökumətlərinə göndərdiyi direktivdə göstərilirdi ki, AXC hökuməti Azərbaycan xalqının, o cümlədən Naxçıvan əhalisinin mənafeyinə zidd olan bu layihələri qətiyyətlə rədd etdi və onların gerçəkləşməsinə imkan verməyəcəyini bildirdi.

Haskelin müavini, polkovnik Ceyms Rey 1919-cu il oktyabrın 24-də Naxçıvana gəldi və Müsəlman Milli Şurası qarşısında V.Haskelin bəyanatını elan edərək qubernatorluğun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmund L.Dellinin ona başçı təyin olunduğunu bildirdi. Ermənistan-daşnak hökumətinin razılıqla qarşıladığı bu bəyanat Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qəti etirazı və Naxçıvan əhalisinin ciddi müqaviməti ilə üzləşdi. Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceyms Rey qərarını dəyişməyə məcbur oldu. Delli Naxçıvanda general-qubernator kimi deyil, Antanta ali komissarı V.Haskelin nümayəndəsi kimi qaldı. 1920-ci ilin yanvarında sonuncu Amerika əsgəri Naxçıvan torpağını tərk etdi. Beləliklə, bölgə əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ciddi diplomatik səyləri bu təxribat aktının qarşısını vaxtında aldı və ermənilərin Naxçıvanı ABŞ-nin yardımı ilə ələ keçirmək niyyətini növbəti dəfə puça çıxardı.

AXC-nin süqutundan sonra Naxçıvanın Azərbaycanın, yaxud Türkiyənin tərkibində qalması ilə bağlı fikir ayrılıqları da tarixdə öz əksini tapıb. Naxçıvan əhalisinin mövqeyi burada həlledici rol oynayıb. Nəhayət, Moskva və Qars müqavilələri ilə 3-cü tərəfə güzəştə getməmək şərtilə Naxçıvan Türkiyənin təminatı ilə Azərbaycanın tərkibinə verilib. Sovetlər dönəmində formal müstəqillik olduğu üçün Naxçıvan beynəlxalq münasibətlər sistemində, demək olar ki, heç bir funksionallıq kəsb etməyib.

Naxçıvanın tarixindən danışarkən bağlanmasından yüz ildən çox vaxt keçməsinə baxmayaraq, tarixi əhəmiyyətini itirməyən Qars müqaviləsinə toxunmaya bilmərik.

Qars müqaviləsi 16 mart 1921-ci ildə Rusiya Sovet Federativ Sosialist Respublikası ilə Türkiyə Böyük Millət Məclisi (1923-cü ildə qurulacaq Türkiyə Cümhuriyyətinin sələfi) arasında bağlanmış Moskva sülh müqaviləsinin tələblərinin yerinə yetirilməsi çərçivəsində həmin il 13 oktyabr 1921-ci il tarixdə Azərbaycan, Ermənistan və Gürcüstan SSR ilə Türkiyə arasında Qars şəhərində imzalanan sülh müqaviləsidir. Müqavilə 11 sentyabr 1922-ci ildə qüvvəyə minmişdir və müddətsizdir.

Qars müqaviləsinin tarixi hüquqi əhəmiyyətinə qiymət verərkən Naxçıvan Muxtar Respublikasının məhz Azərbaycanın tərkibində qalmasına hüquqi zəmin yaratmasını xüsusilə qeyd etməliyik. Heç kimə sirr deyil ki, zaman-zaman ermənilər Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddiaları ilə çıxış ediblər. Əsrin əvvəllərində bu cəhdlər intensiv şəkildə irəli sürülmüş, lakin Naxçıvan əhalisinin ciddi müqaviməti və Türkiyə ilə bağlanmış Qars müqaviləsi nəticəsində bu cəhdlər uğursuz olmuşdur.

Ulu Öndər Heydər Əliyev Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusunun qorunub saxlanılmasında Qars müqaviləsinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olub. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzolmayan bir sənəddir”.***

Türkiyəli diplomat, sabiq səfir Şükrü Ələkdağın Ümummilli Lider Heydər Əliyevin Qars müqaviləsinə istinadla Ermənistan tərəfindən Naxçıvana planlaşdırılan irimiqyaslı hücumun qarşısının alınmasında rolundan danışarkən söylədiyi fikirlər çox maraqlıdır. Ş.Ələkdağ deyir: “Ermənistan 1992-ci il mayın 8-də Şuşanı işğal edən zaman paralel olaraq Naxçıvanın Sədərək bölgəsinə də hücum etmiş, erməni silahlı birləşmələri sərhədlərimizin 10 kilometrliyində hərbi əməliyyata başlamışdılar. O zaman rəhmətlik Heydər Əliyev Türkiyədən yardım istədi və Prezident Süleyman Dəmirəl bu tələblə bağlı hökumətin toplantısını çağırdı. Hökumət Qars və Moskva müqavilələrini nəzərə alaraq Ermənistan hökumətinə xəbərdarlıq etmək qərarına gəldi və Baş nazirin müavini Erdal İnönü Ermənistanın xarici işlər naziri ilə əlaqə yaradaraq bildirdi ki, bu hərəkətin cavabı çox ağır olacaq. O dövrün Quru Qoşunları komandanı da türk qoşunlarının hazır vəziyyətə gətirildiyini elan etdi və Ermənistan Naxçıvana qarşı hücumları dayandırmağa məcbur oldu. Bununla da Qars müqaviləsi Naxçıvanın Ermənistanın hücumlarından qorunmasında son dərəcə mühüm rol oynamışdır”.

Qars müqaviləsi bağlandığı vaxtdan Ermənistanda birmənalı qarşılanmadı. Ermənilərin bir qrupu bu müqavilənin erməni xalqının iradəsini ifadə etmədiyini bildirdi. Onlar daha çox Sever müqaviləsinə üstünlük verirdilər. Təsadüfi deyil ki, o dövrlər “Sovet Ermənistanı” qəzeti kimi nəşrlərdə “Qars sülh konfransı” adlı yazılarda bu danışıqlar Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirilsə də, əks mövqedə olan qüvvələr də az deyildi.

Həmin dövrlərdə Təbrizdə çap olunan erməni “Hayk” qəzetinin “Pərdə götürülmüşdür” adlı baş məqaləsində Qars müqaviləsinə mənfi münasibət sərgilənmişdir.

Beynəlxalq hüququn prinsiplərinə görə, Qars müqaviləsinin ləğvinə yönəlik cəhdlərin əsası varmı? Əlbəttə, birmənalı şəkildə, demək olar ki, xeyr. Qars müqaviləsi müddətsiz bağlanmış çoxtərəfli müqavilədir. Beynəlxalq hüququn prinsiplərinə əsasən müqaviləni imzalayan şəxslər dövlətləri tərəfindən mandat almışdılar və müqavilə ratifikasiya edilmiş, mübadiləsi həyata keçirilmişdir. Lakin Ermənistanın daha çox istinad etdiyi Sever müqaviləsi Qars müqaviləsindən fərqli olaraq Türkiyə Böyük Millət Məclisi tərəfindən ratifikasiya edilməmişdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə işğaldan azad edilmiş Şuşa şəhərində Türk dünyasının iki böyük şəxsiyyəti tərəfindən imzalanmış Şuşa Bəyannaməsində bir daha Qars müqaviləsinə sadiqlik öz təsdiqini tapmışdır.

1 fevral 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin preambulasında deyilir: *“Azərbaycan Respublikası və Türkiyə Respublikası, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq, iki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixində imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə”ni və “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol”u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə”ni rəhbər tutaraq, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər”.*

Türk dünyasının iki böyük lideri Heydər Əliyev və Süleyman Dəmirəl arasında bağlanmış 9 fevral 1994-cü il tarixdə imzalanmış “Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə” iki qardaş dövlətin mənəvi birliyini özündə ehtiva edən ilkin böyük hüquqi akt hesab olunmalıdır.

“Bir millət, iki dövlət” ideyasını Azərbaycan-Türkiyə qardaşlığının formuluna çevirən Ümummilli Lider Heydər Əliyevin hələ Naxçıvan Ali Məclisinə rəhbərlik etdiyi dövrdə Türkiyə ilə müstəsna münasibətlər qurmasının şahidi olmuşuq.

Müstəqilliyimizin əldə olunmasında Naxçıvanın müstəsna rolu danılmazdır. 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti SSRİ-dən çıxmaq haqqında tarixi qərar qəbul etdi. Bu addım muxtar respublika əhalisinin müstəqillik arzusunun təzahürü idi. Ulu Öndər Heydər Əliyev 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyət göstərərək regionda siyasi və iqtisadi sabitlik yarada bildi. Onun 1993-cü ildə ölkə rəhbərliyinə qayıtması Azərbaycanın mərkəzi hakimiyyətindəki boşluqları aradan qaldıraraq Naxçıvanın erməni hərbi təcavüzündən qorunmasına və blokada şəraitindən çıxmasına kömək etdi. Müstəqilliyin təməl prinsipləri, o cümlədən üçrəngli bayrağın qəbulu, “sovet” və “sosialist” sözlərinin respublika adından çıxarılması kimi qərarlar məhz bu dövrdə həyata keçirildi. Dahi şəxsiyyət Heydər Əliyevin dövründə Naxçıvanın Türkiyə ilə münasibətləri xüsusi diqqət mərkəzində oldu. 1992-ci ildə Araz çayı üzərində inşa edilən “Ümid” körpüsü (Sədərək körpüsü) regionun iqtisadi və sosial əlaqələrini gücləndirdi. 1998-ci ildə imzalanan “sərhəd prosedurlarının sadələşdirilməsi” sazişi ilə ticarət və nəqliyyatın sadələşdirilməsi Türkiyənin hərbi və iqtisadi yardımının genişləndirilməsini təmin etdi.

Ardı 5-ci səhifədə

# Əbədi zəfər tonqalımız



## Prezident İlham ƏLİYEV:

*“2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız, yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.”*

*(əvvəli 1-ci səhifədə)*

. Səbir etdik illərlə, ordumuza, Ali Baş Komandanımıza inanıb gözlədik. İllər sonra 44 gündə həsrət bitdi. İllərdir, həsrətlə yol gözləyən Qarabağ azad oldu, yenidən əsl sahibinə – öz anasına, Azərbaycanına qovuşdu. Qəhrəmanlar yurdu, qədim Azərbaycanın igid oğulları tariximizin şanlı səhifələrinə daha bir zəfər dastanı yazdı. Həmin gün sanki yenidən dünyaya gəldi Şuşa, Zəngilan, Ağdam, Kəlbəcər. Babalardan miras qalan qeyrət yolunda oğullarının qazandığı zəfərlə qovuşduq atalarımızın ruhunun gəzdiyi torpağa. Zəfər himni çalındı, azan oxundu, illərdir, həsrətində olduğumuz yurdlarda.

2021-ci ilin baharı illər sonra Qarabağa gələn ən gözəl bahar oldu. Qarabağa illər sonra əsl bahar gəldi. Günəş dağların başında görünəndə həsrətdən buz tutan uca zirvələrin qarı əriyib can atdı azad torpağa qovuşmağa. Xarıbülbül açmağa tələsdi. Bayram gördü Şuşa yenə. Cıdır düzündə şahə qalxan Qarabağ atının səsi Şuşa dağlarına yayıldı. Bülbülün, Üzeyirin, Xan qızının, Vaqifin ruhu sakitliyə qovuşdu. Çünki həmin gün Şuşada bir tonqal qalandı. Zəfər tonqalı, bayram atəşi. Qalib Komandan Prezident İlham Əliyevin Şuşada, Cıdır düzündə yandırdığı bayram tonqalı bizim əbədi zəfər tonqalımız oldu. Həmin gün o tonqalın istisinə 30 ildir, donan ürəklər isindi. İllərlə həsrət çəkib kor olan gözlər həmin tonqalın işığında nura qərq oldu.

Azad Vətənin səmasında ağ göyərçinə dönüb qanad çalan şəhid ruhları şad oldu. İndi artıq çiçək açır Kəlbəcər. Dağlar yol verir öz oğul-qızlarına. Zəngilanda, Laçında, Cəbrayılda qalanan bayram tonqallarının ətrafında yallı gedən gənclər birliyimizi, azadlığımızı göstərir. Daha üşümür Şuşa, qərib-qərib boynunu bükmür Zəngilan. Biz dünyanın ən xoşbəxt xalqına çevrilmişik. Biz qalibik, biz məğruruq, biz alnıaçıq, başı dik gəzirik artıq. Çünki biz qələbə qazanmışıq. Bu böyük xoşbəxtçilikdir. Dövlət başçısının Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olduğu və bayram tonqalını alovlandırdığı gündə dediyi kimi: ***“Artıq iki ildir ki, bu diyar işğalçılardan azad olunub, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilmişdir və bundan sonra artıq bərpa işləri başlanmışdır, evlər yenidən tikildi-quruldu, bütün şərait yaradıldı. Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir”.***

6 ildir ki, Şuşada səməni cücərdirik, Laçında bayram süfrəsi açırıq, Xankəndidə təhsil alan gənclərimiz bayram tonqalının ətrafında birləşib bir olur. Biz bu günləri xalqımıza bəxş edən ordumuzla, Ali Baş Komandanımızla qürur duyuruq. Xoşbəxtliyimizin işığı düşməni kor edir artıq. İndi artıq orada yanan od-ocaqlardan çörək ətri gəlir. Ocağımız yanar, təknəmiz doludur artıq. Xocalıda, Laçında bayram süfrəsi açılır. Məhəllələrdə qalanan tonqalların alovu ətrafa şölə saçır. Cavanların səsi baş alıb gedir, uşaqlar sağasola qaçıb bayram sevincini yaşayır. Hər kəs öz yaxınına, qonşusuna pay verib, pay alır. Hamı bayram süfrəsinin başına toplaşıb, bu əziz günü qeyd edir. Uşaqlar “papaqatdı”ya, gənclər isə qulaq falına çıxırlar.

Bütün bunları seyr edəndə 20 mart 1998-ci ildə Ulu Öndərin məcburi köçkünlərlə görüşündə dediyi: ***“Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır”*** sözlərini xatırlayıram. 90-cı illərin ən çətin günlərində ümidimiz olmuşdu bu sözlər. Bu xalq da əmin idi o günün gələcəyinə. Bəli, gün həmin gündür. Biz artıq Şuşada – Cıdır düzündə yanan tonqalı seyr etməyin, Xocalıdan gələn uşaq səslərini eşitməyin qürurunu yaşayır, Ağdamda yanan çırağımızın işığını görürük. Bu gün Azərbaycanın hər qarşında alovlanan tonqal təkcə bayram tonqalı deyil, torpağı Vətən edən oğulların qəlbimizdə alovlandırdığı əbədi məşəldir həm də... Bu tonqal heç vaxt sönməyəcək. Yüz illər sonra da Qarabağda hər bahar yanan bayram tonqalı bizə birliyimizi, Vətən sevgimizi xatırladacaq.

**Ramiyə ƏKBƏROVA**



# Prezident İlham ƏLİYEV:

*“Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.”*



# Böyük Qayıdış:

## postmüharibə dönəmi üçün nümunəvi beynəlxalq model

Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın dövlət siyasətinin əsas prioritet istiqamətlərindən hesab olunur. Otuz il davam edən işğal nəticəsində ciddi dağıntılara məruz qalmış şəhər və kəndlərimizin yenidən qurulması təkcə ölkədaxili sosial-iqtisadi tərəqqi baxımından deyil, həm də regional sabitlik, beynəlxalq əməkdaşlıq və qlobal inkişaf prosesləri kontekstində böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və Böyük Qayıdışa dair Dövlət Proqramına uyğun aparılan bərpa və yenidənqurma işləri, bu mənada, həm də postmünaqişə dövründə dövlətlərin qarşılaşdığı problemlərin həlli baxımından mühüm təcrübə və model ortaya qoyur. Dövlət başçısı müxtəlif yerli və beynəlxalq əhəmiyyətli tədbirlərdə çıxışı zamanı da işğaldan azad olunmuş ərazilər üzrə aparılan quruculuq proseslərini beynəlxalq səviyyədə qəbul edilən nadir inkişaf modeli kimi yüksək qiymətləndirib: ***“Biz müasir şəhərsalma – “ağıllı şəhər”, “ağıllı kənd” konsepsiyalarından istifadə edərək yeni şəhər və kəndləri sıfırdan yaradırıq. Bu, milli hökumətlər tərəfindən postmünaqişə dövründə icra olunan nadir və daha öncə görünməmiş bir inkişaf və yenidənqurma modelidir”.***

Məlum olduğu üzrə müharibələrdən sonra ərazilərin bərpası və yenidən qurulması ölkələrin daxili problemi olmaqla yanaşı, eyni zamanda beynəlxalq siyasətdə yer alan, diqqət mərkəzində dayanan mühüm məsələlərdən birinə çevrilir. Bu baxımdan, Qarabağ regionunda həyata keçirilən layihələr yalnız Azərbaycanın daxili inkişaf proqramı kimi deyil, həm də regional sabitliyin təmin olunmasına yönəlmiş strateji addım kimi qiymətləndirilir. Prosesin koordinasiyalı şəkildə təşkil olunması, görülən işlərin daha səmərəli planlaşdırılması və müxtəlif dövlət qurumlarının fəaliyyətinin uzlaşdırılması məqsədilə təşkil edilən iclaslar xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev tərəfindən keçirilən bu iclaslarda azad edilmiş ərazilərdə aparılan quruculuq və bərpa işlərinin gedişi, qarşıda duran vəzifələr və gələcək layihələr ətraflı müzakirə olunur. İclaslarda əsas diqqət infrastrukturun bərpası, yaşayış məntəqələrinin yenidən qurulması, müasir kommunal xidmətlərin yaradılması və insanların doğma torpaqlarına təhlükəsiz şəkildə qayıdışının təmin olunmasına yönəldilir. Martın 16-da Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib.

Qarabağda aparılan quruculuq işlərinin beynəlxalq əhəmiyyəti həm də burada ən müasir texnologiya və texnoloji yeniliklərə əsaslanan infrastrukturun yaradılması ilə səciyyələnir. Yeni avtomobil, dəmir yollarının və hava limanlarının inşası regionun beynəlxalq nəqliyyat və logistika şəbəkələrinə inteqrasiyasını sürətləndirir. Bu kontekstdə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları kimi mühüm strateji obyektlər Qarabağın beynəlxalq iqtisadi əlaqələrə qoşulması baxımından böyük əhəmiyyət daşıyır. Bu layihələr, bütövlükdə, Cənubi Qafqazın tranzit potensialını artırır və gələcəkdə Zəngəzur dəhlizinin də açılması perspektivində Asiya ilə Avropa arasında yeni nəqliyyat marşrutlarının formalaşmasına töhfə verəcək. Böyük Qayıdışın icrasına dair proqramlaşdırılmış düzgün koordinasiya ilə yanaşı, geniş təbliğat da önəmli rol oynayır. Məhz bu kontekstdə Qarabağda baş tutan bir sıra beynəlxalq əhəmiyyətli tədbirlər, o cümlədən ötən il Xankəndidə keçirilən İƏT-in 17-ci Zirvə görüşü yeni iqtisadi əməkdaşlıqların qurulması və işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının təqdimatı, imkanların qlobal müstəvidə dəyərləndirilməsi nöqteyi-nəzərdən mütərəqqi addımlardandır.

Qarabağda həyata keçirilən bərpa layihələrinin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən, diqqətçəkən xüsusiyyətlərindən biri də müasir şəhərsalma və innovativ texnologiyaların tətbiqidir. Belə ki, hazırda bölgədə dağıdılmış, məhv olunmuş kənd və şəhərlərin yerində “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarına əsaslanan yaşayış məntəqələri yaradılır. Bu baxımdan, 2022-ci ildə istifadəyə verilən Ağalı kəndi mühüm yol xəritəsi və düzgün praktik istiqamət müəyyənləşdirir. Zəngilan rayonu ərazisində həyata keçirilən bu layihə müasir texnologiyalara, ekoloji yanaşmaya və rəqəmsal idarəetmə sistemlərinə əsaslanır. Həmçinin kənd təsərrüfatının inkişafı, resursların səmərəli idarə olunması və regionda dayanıqlı həyat mühitinin yaradılması baxımından mühüm rol oynayır. Ağalının uğurlu davamı kimi, Şuşa şəhərində ağıllı şəhər konsepsiyası – turizm, mədəniyyət obyektləri, ictimai xidmətlər və smart nəqliyyat sistemlərinin qurulması nəzərdə tutulub. Eyni zamanda Füzuli və Hadrut bölgələrində ağıllı texnologiyalar əsasında infrastruktur yaradılır. Laçın və Zəngilan rayonlarında smart kənd təsərrüfatı və yaşayış məntəqələri üçün planlaşdırılmış pilot layihələr də hazırda icra prosesindədir. Bu layihələr, birinci növbədə, yerli əhalinin məşğulluğuna və uzunmüddətli sosial rifaha xidmət edir. Azərbaycanın tətbiq etdiyi bu innovativ yanaşmalar beynəlxalq səviyyədə böyük maraq doğurur. Bu da təsadüfi deyil. Çünki dünyanın bir sıra postmüharibə bölgələrində bərpa işləri ənənəvi üsullarla aparıldığı halda, Qarabağda innovativ və texnoloji əsaslı inkişaf modeli tətbiq olunur.

Böyük Qayıdış siyasətinin beynəlxalq əhəmiyyəti həm də “yaşıl enerji” siyasəti və ekoloji davamlılıqla bilavasitə əlaqəlidir. Qarabağ və Şərqi Zəngəzurun “yaşıl enerji” zonası elan olunması qlobal müstəvidə vacib amil kimi Azərbaycanın enerji strategiyasında yeni mərhələnin vacib komponentlərindəndir. Bu çərçivədə bərpa olunan enerji mənbələrinin inkişafı, xüsusilə də günəş və su elektrik stansiyalarının tikilməsi planlaşdırılır və həyata keçirilir. Sözügedən yanaşma ekoloji tarazlığın qorunmasına, karbon emissiyalarının azaldılmasına və enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət etməklə qlobal çəkisini ortaya qoyur. Məhz, bu mənada, Azərbaycan Qarabağ və Şərqi Zəngəzur regionunu ekoloji cəhətdən təmiz enerji istehsalı mərkəzinə çevirməklə gələcəkdə beynəlxalq enerji bazarlarındakı rolunu daha da gücləndirməyi hədəfləyir.

Bildiyimiz kimi, Qarabağ Azərbaycanın yalnız iqtisadi və strateji baxımdan deyil, həm də zəngin mədəni irsi ilə seçilən regionudur. Bu baxımdan, postmüharibə dönəmində tarixi və mədəni abidələrin bərpası böyük əhəmiyyət kəsb edir. Xüsusilə Şuşa şəhərinin yenidən qurulması və mədəni irsinin bərpası regionun turizm potensialının inkişafına mühüm töhfə verir və bölgəyə turist axınını gücləndirir. Şuşanın mədəni mərkəz kimi dirçəldilməsi, 2021-ci ildə Azərbaycanın, 2023-cü il üçün Türk dünyasının, 2024-cü il üçün İslam dünyasının Mədəniyyət paytaxtları statusunu qazanması Azərbaycanın mədəni diplomatiyasının güclənməsinə və regionun beynəlxalq turizm xəritəsində daha geniş tanınmasına imkanlar açıb.

Ümumilikdə, qeyd etdiyimiz bütün bu amillər göstərir ki, Böyük Qayıdış siyasəti, Qarabağda aparılan quruculuq və bərpa işləri yalnız bir regionun yenidən qurulması prosesi deyil. Reallaşdırılan layihələr regional sabitliyin möhkəmlənməsi, beynəlxalq iqtisadi əməkdaşlığın genişlənməsi və dağıdılmış ərazilərin postmüharibə dövründə bərpasının yeni modelinin formalaşması baxımından böyük əhəmiyyət daşıyır. Hazırkı Azərbaycan-Ermənistan sülh prosesi, Azərbaycan-ABŞ strateji tərəfdaşlığı belə deməyə əsas verir ki, Qarabağın yenidən qurulması gələcəkdə həm qlobal əməkdaşlığın dərinləşməsinə, həm də Cənubi Qafqazın iqtisadi, siyasi və sosial inkişafında mühüm rol oynayacaq. Azərbaycanın siyasi və iqtisadi qüdrətini özündə cəmləşdirən bu proses həm də onu göstərir ki, müharibədən zərər çəkmiş ərazilər düzgün strategiya və effektiv idarəetmə sayəsində qısa müddətdə nəinki bərpa edilə, inkişaf və tərəqqi məkanına da çevrilə bilər.

**Nail ƏSGƏROV**



# Naxçıvanda “Şəhərsalma və Memarlıq İli” çərçivəsində ağacəkmə aksiyası keçirilib





Martın 14-də Naxçıvan Muxtar Respublikasında “Şəhərsalma və Memarlıq İli” çərçivəsində genişmiqyaslı ağacəkmə aksiyası təşkil olunub.

Aksiyada Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, ekokönüllülər və ictimaiyyət təmsilçiləri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev bildirib ki, “Şəhərsalma və Memarlıq İli” çərçivəsində həyata keçirilən tədbirlər, həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına uyğun olaraq muxtar respublikada yaşıllaşdırma sahələrinin əhatə dairəsi genişləndirilir. Qeyd olunub ki, cari il ərzində muxtar respublika ərazisində 485,5 hektar sahədə 76 mindən çox tingin əkilməsi planlaşdırılır.

Aksiya çərçivəsində Naxçıvan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə gedən avtomobil yolunun kənarında yerləşən Pürcüvar Dövlət Meşəsi ərazisində 6,5 hektar sahədə 6500 ədəd tut və aylant tingi əkilərək meşəsalma layihəsi həyata keçirilib.



Bununla yanaşı, 0,3 hektar ərazidə tut toxmacarlığı və qələmköklənmdirmə sahəsi yaradılıb, 4000 ədəd iydə və 1000 ədəd üzüm çiliyi əkilib.

Keçirilən aksiya muxtar respublikada ekoloji tarazlığın qorunması, yaşıllıq sahələrinin genişləndirilməsi və biomüxtəlifliyin artırılması istiqamətində görülən ardıcıl tədbirlərin tərkib hissəsidir.



**Sadiq QURBANOV**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

*(əvvəli 2-ci səhifədə)*

Müstəqil Azərbaycana rəhbərliyi illərində Ümummilli Lider Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. Ulu Öndər hakimiyyətdə olduğu dövrdə 4 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci il iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı.

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına Ulu Öndərin doğum günündə – 10 may 2021-ci il tarixli səfəri təsadüfi deyildi. Dövlətimizin başçısının vurğuladığı kimi: ***“Tarixi Zəfərdən sonra bu, atamın birinci doğum günüdür. Ona görə mən hesab etdim ki, ənənəvi olaraq onun məzarını ziyarət edəndən sonra onun Vətəninə - Naxçıvana gəlim. Hesab edirəm ki, bu səfərin çox böyük rəmzi mənası var. Qeyd etdiyim kimi, mən 15-ci dəfədir ki, Naxçıvana gəlirəm. Amma ilk dəfə mayın 10-da Naxçıvandayam. Bu doğum günündə mütləq burada olmalıydım”.***

44 günlük Zəfər müharibəsinin memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində əvvəlcə 10 noyabr 2020-ci il tarixli Bəyannaməyə Naxçıvanla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla Naxçıvanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə zəmin yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da Naxçıvanın geostrateji əhəmiyyətini daha da artıracaq. Bütün bunlar Ali Baş Komandanın dəmir iradə və diplomatik bacarığının nəticəsidir.

Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə Naxçıvan həm Türk dünyasının bütövlüyünün rəmzinə çevriləcək, həm də bizim üçün Avropaya qapı olacaq. Zəngilan-Ordubad dəmir yolu xətti və Zəngəzur dəhlizinin (TRIPP) açılması üçün texniki imkanlar formalaşdırılıb. Vaşinqton paraflanmasından sonra Zəngilanı Naxçıvanla birləşdirəcək 40 kilometrlik Zəngəzur dəhlizinin (TRIPP) mütləq açılacağı heç kimdə şübhə doğurmur. Ölkəmizin rəhbərinin dediyi kimi, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq.

Prezident İlham Əliyev 10 mart 2026-cı ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununu təsdiq etdi.

Sənədə əsasən Naxçıvan Konstitusiyasına iki yeni maddə (maddə 3-1 və maddə 28-1) əlavə edilib, bir maddə (maddə 5) çıxarılıb. Həmçinin bir sıra maddələrdə və preambula hissəsində dəyişikliklər edilib. Preambula hissəsində Qars və Moskva müqavilələrinə istinad çıxarılıb.

Azərbaycan Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının preambulasında da öz əksini tapıb.

Konstitusiyaya əlavə edilən “Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi” adlı 3-1-ci maddəyə əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Digər maddə “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin buraxılması” adlı 28-1-ci maddədir. Bu maddədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatın tələbi ilə və ya Konstitusiyanın müvafiq maddələrində göstərilən vəzifələri aradan qaldırıla bilməyən səbəblər üzündən icra edə bilmədikdə Azərbaycan Prezidenti tərəfindən buraxılması qeyd olunur.

Konstitusiya Qanununda dəyişikliklərdən biri də “Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi” adlı 5-ci maddənin çıxarılmasıdır.

Qanuna əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifləri əsasında Azərbaycan Prezidenti təyin edəcək (maddə 13, II hissə).

Bundan başqa, sənəddə Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclasının keçirilə bilməsi nəzərdə tutulur (maddə 18, IV hissə).

Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusuna dair qanunlar 31 səs çoxluğu, qalan məsələlərə dair qanunlar isə 23 səs çoxluğu ilə qəbul ediləcək (maddə 24, II hissə).

Sənədə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmək üçün Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşamaq tələbi aradan qaldırılacaq (maddə 29, II hissə).

Digər dəyişiklik Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti başçılarının Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilməsidir (maddə 32.4-1).

Konstitusiya Qanununa əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabe olmayacaq və iş qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyənləşdirəcək (maddə 34).

Sənəddə, həmçinin “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Konstitusiya Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin aktlarının artıq qərar deyil, sərəncam adlandırılması nəzərdə tutulub (maddə 33).

Qanuna əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları yox, qanunlar qəbul ediləcək (maddə 50).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi hesab edilirdi, həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində geniş səlahiyyətlərə malik idi. Bu müddəanın çıxarılması ilə bu norma hakimiyyət bölgüsü prinsipinə uyğunlaşdırıldı.

Həmçinin Naxçıvan Muxtar Respublikasında icra orqanı statusunda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin yaradılması məsələsi Konstitusiya səviyyəsində təsbit olunur. Yəni hazırda mövcud olan səlahiyyətli nümayəndəliyin statusu dəqiqləşdirilir.

Bundan başqa, Azərbaycan Konstitusiyasında təsbit olunmuş, lakin Naxçıvan Muxtar Respublikası Konstitusiyasında öz əksini tapmamış bəzi müddəalar da (müharibə şəraitində hərbi əməliyyatların aparılması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Ali Məclisin çağırışının səlahiyyət müddətinin uzadılması, Ali Məclisin buraxılması və s.) Konstitusiyaya daxil edilir, ayrı-ayrı məsələlərin ifadə forması dəqiqləşdirilir.

Naxçıvanın idarəetmə sisteminin, o cümlədən icra hakimiyyətinin təşkilində Azərbaycanın mərkəzi hakimiyyətinin rolu, xüsusən də Prezident institutunun rolu gücləndirilir. Başqa sözlə, Naxçıvanın muxtariyyət statusu və onun təminatları saxlanılmaqla səlahiyyət dairəsi nisbətən məhdudlaşdırılır, muxtar respublikada hazırda mövcud olan hakimiyyət və idarəetmə mexanizmləri daha çox Azərbaycanın mərkəzi hakimiyyət sisteminə inteqrasiya edilir ki, bu, unitar dövlət və siyasi muxtariyyətin müasir konsepsiyasına və modelinə uyğundur. Naxçıvan Konstitusiyasına dəyişiklik, bütövlükdə, şəffaflığın, çevik idarəetmənin təmin olunması ilə bərabər, yerli idarəetmədə subyektiv amilləri aradan qaldıracaq.



# Naxçıvanın inkişaf hesabatı: sosial rifah və iqtisadi artımın vəhdəti

Azərbaycan iqtisadiyyatının dirçəldilməsi üçün mühüm strategiyaların əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin ***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"*** ideyası bu gün yalnız milli deyil, həm də beynəlxalq miqyasda qəbul edilən və praktik nəticələrlə təsdiqlənən inkişaf modelinə çevrilib. Bu strateji yanaşma müasir dövrdə iqtisadi sabitliyin, siyasi müstəqilliyin və sosial rifahın təmin olunmasının əsas şərti kimi çıxış edir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkədə dayanıqlı inkişaf modeli formalaşıb, bu model regionların, o cümlədən Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında öz real təcəssümünü tapmaqdadır. Muxtar respublikada həyata keçirilən islahatlar yalnız cari iqtisadi göstəricilərin yaxşılaşdırılmasına deyil, eyni zamanda uzunmüddətli inkişafın institusional əsaslarının möhkəmləndirilməsinə yönəlib. Aparılan islahatlar nəticəsində makroiqtisadi sabitlik daha da möhkəmləndirilib, biznes və investisiya mühiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, sahibkarlıq təşəbbüsləri geniş dəstəklənib. İnfrastruktur layihələrinin miqyasının genişləndirilməsi isə regionun iqtisadi potensialının daha səmərəli reallaşdırılmasına şərait yaradıb.

Muxtar respublikada həyata keçirilən sosial siyasət xüsusi diqqət mərkəzində saxlanılmaqla əhalinin rifah halının yüksəldilməsinə yönəldilib. Sosial müdafiə tədbirlərinin gücləndirilməsi, məşğulluğun artırılması, şəhid və qazi ailələrinə davamlı dövlət qayğısının göstərilməsi bu siyasətin əsas istiqamətlərindəndir. Yerli sənayenin və kənd təsərrüfatının inkişafı ilə paralel olaraq sosial sahələrdə həyata keçirilən yeniliklər kompleks inkişaf modelinin mühüm tərkib hissəsini təşkil edir. Muxtar respublikada görülən tədbirlər regionun iqtisadi müstəqilliyinin möhkəmləndirilməsinə, əhalinin rifah halının yüksəldilməsinə və Naxçıvanın rəqabətqabiliyyətli iqtisadi mərkəz kimi mövqeyinin daha da gücləndirilməsinə xidmət edir. Bu baxımdan, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyətinə dair təqdim olunan hesabat Nazirlər Kabineti tərəfindən 2025-ci il ərzində həyata keçirilmiş sosial-iqtisadi siyasətin nəticələrini və qarşıya qoyulmuş vəzifələrin icra vəziyyətini əhatə edən mühüm sənəd kimi çıxış edir. Sənədin əsas məqsədi müvafiq dövlət orqanlarının fəaliyyətinin və əldə olunmuş nəticələrin sistemli şəkildə qiymətləndirilməsi, eyni zamanda müxtəlif sahələr üzrə görülmüş işlərin ümumiləşdirilmiş formada təqdim edilməsindən ibarətdir. Hesabatda Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş strateji inkişaf kursuna uyğun olaraq makroiqtisadi sabitliyin qorunması, iqtisadi artımın təmin edilməsi, əhalinin rifah halının yüksəldilməsi, sosial müdafiə tədbirlərinin gücləndirilməsi istiqamətləri üzrə muxtar respublikada görülmüş işlər geniş şəkildə əks etdirilir.




Eyni zamanda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası, infrastruktur layihələrinin reallaşdırılması və institusional islahatların dərinləşdirilməsi hesabatın əsas prioritetlərindəndir.

Hesabat göstərir ki, 2025-ci ildə Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsul istehsalı artıb, iqtisadi fəallıq yüksəlib. Real sektorun, xüsusilə sənaye və kənd təsərrüfatı sahələrinin inkişafı iqtisadi dinamikanı təmin edib. Dövlət maliyyəsi sahəsində büdcə gəlirləri artıb, xərclər, əsasən, sosialyönümlü layihələrə və infrastrukturun inkişafına yönəldilib, büdcə intizamı gücləndirilərək maliyyə dayanıqlılığı qorunub. Xarici iqtisadi əlaqələr genişlənib, ticarət dövriyyəsi artıb və yerli məhsulların yeni bazarlara çıxışı istiqamətində mühüm addımlar atılıb. Göstəricilərin təkcə 2025-ci ili əhatə etməməsi, əvvəlki illərlə müqayisəsinin də aparılması muxtar respublikanın bir neçə il üzrə iqtisadi inkişaf mənzərəsinə nəzər salmağa, daha dərin təhlillər aparmağa şərait yaradır.

Sənədə əsasən sənaye istehsalında artım qeydə alınıb, yeni müəssisələr yaradılıb, yerli xammala əsaslanan istehsalın genişləndirilməsi idxaldan asılılığın azaldılmasına xidmət edib. Kənd təsərrüfatında məhsul istehsalı tədricən artıb, aqrar sahəyə dövlət dəstəyi gücləndirilib, subsidiyalar məhsuldarlığın yüksəlməsinə səbəb olub. Sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə vergi və inzibati yük azaldılıb, kiçik və orta biznesin inkişafına dəstək mexanizmləri genişləndirilib ki, nəticədə, büdcə daxilolmaları xeyli artıb. Nümunə üçün qeyd etmək yerinə düşər ki, 2025-ci ildə yerli büdcələr üzrə daxilolmalar plana qarşı 136 faiz, 2024-cü ilə nisbətdə isə 14,9 faiz daha çox icra olunaraq 260,4 milyon manat olub.

Hesabatda Prezident İlham Əliyevin ölkə üzrə həyata keçirdiyi sosial siyasətinin Naxçıvan Muxtar Respublikasında icra vəziyyəti təhlil edilir. Qeyd olunur ki, əhalinin həssas qruplarına yönəlik proqramlar genişləndirilib, sosial müavinətlər və pensiyalar artırılıb. Məşğulluğun təmin olunması istiqamətində yeni iş yerləri yaradılıb, özünüməşğulluq proqramlarının effektivliyi gücləndirilib. Xüsusilə şəhid ailəsi üzvləri və müharibə iştirakçılarına dövlət dəstəyi xeyli gücləndirilib.Təhsil müəssisələrinin maddi-texniki bazası zənginləşdirilib, STEAM layihəsinin icrası diqqətdə saxlanılıb, məktəblərdə monitorinqlər aparılıb, ali məktəblərə qəbul göstəricilərində artım müşahidə olunub, səhiyyə sahəsində xidmətlərin keyfiyyəti yüksəldilib və əhalinin tibbi xidmətlərə çıxışı yaxşılaşdırılıb. İnfrastruktur sahəsində avtomobil yolları yenilənib, nəqliyyat şəbəkəsi genişləndirilib, enerji təminatı yaxşılaşdırılıb və alternativ enerji mənbələrinin istifadəsi artırılıb. Rayon, qəsəbə və kəndlərdə su-kanalizasiya sistemlərində yenilənmələr aparılıb, rəqəmsal xidmətlərin tətbiqi genişləndirilib və elektron hökumət platformalarının fəaliyyəti təkmilləşdirilib.

Hesabatda "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icra vəziyyəti barədə də geniş şərhlər verilib, təhlillər aparılıb. Bundan başqa, İnvestisiya proqramı, su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya çərçivəsində reallaşdırılan mühüm layihələr diqqətə çəkilib. Şərur Sənaye Məhəlləsi, Naxçıvan Sənaye Parkı və Azad İqtisadi Zonanın yaradılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib. Bütün bu və digər iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq, demək olar ki, gələcək dövrdə muxtar respublikada iqtisadiyyatın daha da şaxələndirilməsi, innovasiya və rəqəmsallaşmanın genişləndirilməsi, ixrac potensialının artırılması, sosial rifahın yüksəldilməsi və dayanıqlı inkişaf təminatı əsas prioritet istiqamətlər kimi özünü daha bariz şəkildə göstərəcək.

Ümumilikdə, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin fəaliyyətinə dair təqdim olunan hesabat göstərir ki, 2025-ci il ərzində muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasət uğurlu nəticələr verib, regionun iqtisadi dinamikası daha da güclənib. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan məqsədyönlü və ardıcıl siyasət nəticəsində muxtar respublikanın iqtisadi potensialı əhəmiyyətli dərəcədə artıb, əhalinin sosial rifahı və həyat səviyyəsi yüksəlib, infrastruktur və insan kapitalının inkişafı ilə dayanıqlı və uzunmüddətli inkişaf üçün möhkəm zəmin formalaşıb.

## 2026-cı ilin aprel ayında Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu qrafiki

| S/n | Qəbulu keçirilən mərkəzi icra hakimiyyəti orqanının rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|
| 1. | **Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri** Şahin Mirzəyev | Şahbuz | 09.04.2026 |
| 2. | **Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri** Kazım Hüseynəliyev | Babək | 16.04.2026 |
| 3. | **Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri** Rafail Quliyev | Culfa | 07.04.2026 |
| 4. | **Naxçıvan Muxtar Respublikasının təhsil naziri** Elxan Nəcəfov | Babək | 14.04.2026 |
| 5. | **Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri** Xanlar Mustafayev | Culfa | 09.04.2026 |
| 6. | **Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Rəşadət Nabatov | Sədərək | 16.04.2026 |
| 7. | **Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən** Həsən Seyidov | Ordubad | 16.04.2026 |
| 8. | **Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Ramilə Seyidova | Sədərək | 14.04.2026 |
| 9. | **Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** İlqar Sadıqov | Kəngərli | 22.04.2026 |
| 10. | **Naxçıvan Muxtar Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri** Səfərəli Nəsirov | Şərur | 15.04.2026 |
| 11. | **Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru** Vüqar Babayev | Şahbuz | 23.04.2026 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat $11^{00}$-da başlayır.

## Naxçıvanda telefon rabitəsinin 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib




Martın 17-də Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Naxçıvanda telefon rabitəsinin yaradılmasına həsr olunmuş "Bir əsrlik səs: Naxçıvanda telefon rabitəsinin 100 illiyi" adlı yubiley tədbiri keçirilib.

Tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq Ulu Öndərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirin rəsmi hissəsində Vətən uğrunda canından keçmiş şəhidlərin və Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ardınca Naxçıvanda telefon rabitəsinin yaranması və inkişaf tarixini əks etdirən "1926-cı ildən bu günə" adlı videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Azər Məmmədrəhimov tədbirdə çıxış edərək rabitə sahəsinin keçdiyi inkişaf mərhələlərindən danışıb. O bildirib ki, 1926-cı ildə qəbul edilən qərar Naxçıvanda müasir rabitə sisteminin formalaşmasının təməlini qoyub. Vurğulanıb ki, son yüz ildə həyata keçirilən yeniliklər, tətbiq olunan müasir texnologiyalar və yaradılan infrastruktur dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, iqtisadi fəaliyyətin genişlənməsinə və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verib.

Daha sonra çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov və Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov rabitə sahəsinin tarixi inkişaf mərhələləri, əldə olunan nailiyyətlər, müasir texnologiyaların tətbiqi və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər.

Tədbirdə, həmçinin rabitə sahəsində uzun illər fəaliyyət göstərmiş əməkdar rabitəçi Səmayə Quliyeva, uzunmüddətli əmək fəaliyyəti ilə seçilən Elbrus Qocayev, eləcə də gənc əməkdaş, İkinci Qarabağ müharibəsinin iştirakçısı Turqay Məhərrəmov çıxış edərək xatirələrini və təəssüratlarını bölüşüblər.

Yubiley münasibətilə rabitə sahəsində uzun illər səmərəli fəaliyyət göstərmiş bir qrup əməkdaş fəxri fərman və hədiyyələrlə təltif olunub.

Tədbirin bədii hissəsində musiqi ifaları səsləndirilib, nazirliyin əməkdaşı Təhmin Bağırovun ifası təqdim olunub, Naxçıvan Dövlət Texniki Kollecinin "Buta" rəqs qrupu tərəfindən rəqs və musiqi nömrələri nümayiş etdirilib.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 15.04.2026, saat $11^{00}$, Sədərək rayonu, Sədərək Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 15.04.2026, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 20.04.2026, saat $16^{00}$, Şərur rayonu, Kürçülü Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 14.04.2026, saat $15^{00}$, Şərur rayonu, Muğanlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 08.04.2026, saat $15^{00}$, Şərur rayonu, Qarahəsənli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 16.04.2026, saat $10^{30}$, Şərur rayonu, Dərvişlər Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 16.04.2026, saat $15^{00}$, Şərur rayonu, Zeyvə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 28.04.2026, saat $14^{00}$, Şərur rayonu, Oğlanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 02.04.2026, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 10.04.2026, saat $15^{00}$, Şərur rayonu, Dizə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 15.04.2026, saat $15^{00}$, Şərur rayonu, İbadulla Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 21.04.2026, saat $15^{00}$, Şərur rayonu, Tənənəm Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 15.04.2026, saat $10^{30}$, Kəngərli rayonu, Yurdçu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Musayev Musa Abdulla oğlu, 060-418-18-88 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 08.04.2026, saat $11^{00}$, Kəngərli rayonu, Şahtaxtı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 13.04.2026, saat $14^{00}$, Kəngərli rayonu, Yeni Kərki Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 22.04.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 10.04.2026, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 22.04.2026, saat $15^{00}$, Babək Şəhər İncəsənət Məktəbinin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 16.04.2026, saat $11^{00}$, Babək rayonu, Nəcəfəlidizə Kənd Mərkəzi | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 15.04.2026, saat $15^{00}$, Babək rayonu, Sirab Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 15.04.2026, saat $14^{00}$, Babək rayonu, Yuxarı Uzunoba Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 06.04.2026, saat $11^{00}$, Babək rayonu, Cəhri Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyin qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 15.04.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraçuq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 08.04.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 22.04.2026, saat $15^{00}$, Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 15.04.2026, saat $15^{00}$, Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 10.04.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, Şəhriyar küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 24.04.2026, saat $15^{00}$, Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 03.04.2026, saat $12^{00}$, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 21.04.2026, saat $15^{00}$, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 23.04.2026, saat $20^{00}$, Naxçıvan şəhəri, Naxçıvan Dövlət Universitetinin tələbə yataqxanası | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 06.04.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 59-cu məhəllə sakinləri səyyar qəbul | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 15.04.2026, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuzkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 21.04.2026, saat $12^{00}$, Şahbuz rayonu, Ağbulaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 15.04.2026, saat $15^{00}$, Babək rayonu, Didivar kənd, saat $16^{00}$, Nəzərabad Kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliklərinin binası | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 15.04.2026, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 17.04.2026, saat $15^{00}$, Culfa rayonu, Camaldın Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 16.04.2026, saat $11^{00}$, Culfa rayonu, Əbrəqunus Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 15.04.2026, saat $10^{00}$, Culfa rayonu, Saltaq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 09.04.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>23.04.2026 saat $11^{00}$,Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 02.04.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>16.04.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>29.04.2026, saat $15^{00}$, Ordubad rayonu, Yuxarı Əndəmic Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43<br>Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 14.04.2026, saat $16^{00}$, Ordubad rayonu, Kələki Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 15.04.2026, saat $11^{00}$, Ordubad rayonu, Düylün Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 17.04.2026, saat $12^{00}$, Ordubad rayonu, Biləv Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29, 050-660-54-42 |



# NOVRUZ bayramınız mübarək!

## Hər tonqalın alovunda keçmişin xatirəsi, hər diləkdə gələcəyin ümidi yaşayır

***Elimizə, yurdumuza, bütöv, azad Vətənimizə bahar gəlir. Şuşada açan xarıbülbül, Laçın dağlarında qanad çalan Laçın quşu, Zəngilanda canlanan çinar meşələri ürəyimizə fərəh, ruhumuza sakitlik gətirir, arzularımız qanadlanır, qəlblər ilhamla dolub daşır. Yurdumuzun, qədim Naxçıvanımızın seyrindən doymaq olmur bu fasildə də. Ulu torpağın rayon və kəndlərində də böyük sevinclə qarşılanan bahar bayramında hansı evin qapısını döysək, o evdə xoş niyyət və mehribanlıqla qarşılaşırıq. Sədərəkdən Ordubada kimi yurdumuzu qarış-qarış gəzir, elimizin əsrlərdən, qərinələrdən bizə yadigar qalan adət-ənənələri ilə tanış oluruq.***



Sədərək rayonu bir vaxtlara kimi düşmənlə mübarizə aparıb. Elə olub, bahar çiçəkləri şəhid qanına boyanıb, amma insanlar öz evini tərk etməyib yuvasına daha möhkəm bağlanıb, el-obasının çırağını sönməyə qoymayıb. Bu gün Sədərəkdə yanan bayram tonqalının işığı gözümüzə nur, ürəyimizə fərəh gətirir. Bu kiçik rayonun ürəyi dağlar kimi böyük insanları hər baharın gəlişini öz evində sevinclə qarşılayır. Analar halva qovurur uşaqlar papaqatdıya çıxmaq üçün hazırlıq görürlər. Gəlinlər süfrə açır, bişirdikləri bayram şirniyyatlarını süfrəyə düzür, ocağın üstündə dəmlənən aşın ətri isə ətrafa yayılır. Doğmalarını son mənzilində ziyarətə gedənlər yavaş-yavaş öz evinə qayıdır. Nişanlı qızlar xonça yolu gözləyir. Üzümçülüklə məşğul olanlar qışboyu torpağa basdırdığı üzüm kollarını torpaqdan çıxarmaq üçün tələsir.

Şərur, barlı-bərəkətli qədim diyar. Zəhmətkeş insanlar səhərin erkən vaxtından torpağa baş əyib ilin ruzisi üçün əkin yerlərində torpağa toxum atır, baharın gəlişini sevinclə qarşılayır. Artıq uşaqların bayram geyimləri hazırlanıb, ev-eşiyin hər küncü təmizlənib. Analar qızlarına, gəlinlər baldızlarına bayram payı göndərir. Evdəki bu tələş, şirin hazırlıq abhavası uşaqlıq yaddaşımda Novruzun ilk müjdəsi kimi yazılır. "Şərur" yallısının aləmə yayılan səsini duyanda seyr edirəm bu tələşı və xatırlayıram uşaqlığımı.

Süfrənin ən əsas yeməyi isə şirin plov olardı. Mənim yaddaşımda Novruz səhərləri daha çox nənəmin səhər tezdən qalxaraq böyük qayğı ilə bişirdiyi şirin plovun ətri ilə qalıb. Səbirsizliklə gözlədiyim bayramın gəldiyini mənə ən çox hiss etdirən məqam isə İlaxır çərşənbəsi idi. Mənim üçün bayramın ən maraqlı və yaddaqalan anları məhz həmin gün yaşanardı. Axşam düşməmiş ailəmlə birlikdə kənddə yaşayan yaşlıları ziyarətə gedərdik. Bu ziyarət bizim üçün, sadəcə, bir görüş deyil, həm də böyüklərə olan hörmət və ehtiramın göstəricisi idi. Nənəm evdə bişirdiyi şirniyyatlardan bayram payı hazırlayar, biz isə böyüklərin əllərini öpər, onların xeyir-duasını alardıq. Ziyarətlərdən sonra isə bayramın ən coşqulu anı başlayardı. Həyətimizdə tonqal qalayardıq və hamımız onun ətrafına toplaşardıq. Uşaqlar, gənclər, böyüklər – hamı





tonqalın üzərindən tullanardı. Mən də tonqalın üzərindən tullanarkən belə deyərdim: "Ağırlığım, xəstəliyim tökülsün bu odun üstünə". Bu sözlər sanki köhnə ilin bütün ağırlıqlarını odda qoyub yeni ili təmiz niyyətlə qarşılamağın rəmzi idi. Həmin gün bir sıra maraqlı inanclar və adətlər də yerinə yetirilərdi.

Kəngərli – qəhrəmanlar yurdu, igidlər diyarı. Adı qədim özü gənc. Baharın, hər evin qapısında, hər dağın ətəyində, hər bulağın başında qədim bir sevgi nəğməsi oxuduğu diyar. Bu rayonun hər kəndi özünəməxsus nəfəslə qarşılayır baharı. Bir tərəfdə Qarabağlar kəndində qızlar dilək qabının başında toplaşıb ürəklərindəki gizli arzuları suyun səssiz dalğalarına həvalə edirlər, digər tərəfdə isə Xok kəndindəki cavanlar öz papaq və xurcunları ilə qapı-qapı gəzib bayram payı yığır, başqa bir kənddə isə İlaxır çərşənbə gecəsi "baca-baca" mərasimi daha da maraqlı bir sirrə bürünür... Subay oğlanlar və qızlar evlərin qapısında sakitcə dayanıb içəridən süzülən sözləri dinləyir, xoş xəbərlər eşidəndə ürəkləri bahar kimi açılır, qaranlıq sözlər duyulanda isə çıxıb gedirlər, amma o gecənin sehrini ömürboyu daşıyırlar.

İnsanlar sevgilərini bahara yönəldir, günlər öncədən evlər təmizlənir, yorğan-döşəklər çırpılır, bacalar təmizlənir, xalçalar havaya verilir, yeni paltarlar alınır, nemətlər yığılır. Çərşənbə tonqalları üçün odun, kol toplanır, sanki hər bir od parçası qışın soyuğunu yandırıb baharın isti qucağını çağırır. Xüsusilə sonuncu – İlaxır çərşənbədə Qarabağlar və digər kəndlərdə qızlar bir yerə yığışıb dilək qabına sırğa, üzük, sancaq atır, üstünü əlvan yaylıqla örtür, niyyət edib gözlərini yumaraq əllərini suya salırlar. Oxunan haxıştalar, şeirlər hər bir qızın taleyinə işıq salır, ürəklərdə romantik xəyallar oyadır. Martın 21-i axşamı bütün kəndlərdə bol nemətli süfrələr açılır, tonqallar alışır, dəsmallar atılır, qonşular bir-birini gəzir. Gənclər əllərində qırmızı alma, konfet, qoz-fındıq tutub yaşlıları təbrik edir, nənələrin dili ilə desək: "Bu bayram tut yeyilənə qədər davam edir". Hər tonqalın alovunda keçmişin xatirəsi, hər dilək qabında gələcəyin ümidi gizlənir. Bu rayonun baharı elə bir sevgidir ki, onu yaşayan hər kəs ömrünün ən gözəl nağılını yaşayır.

Şahbuz rayonu və onun əsrarəngiz təbiəti, dağların qoynunda yerləşən kəndləri Novruz bayramı yaxınlaşanda tam başqa bir rəngə bürünür. Dağların qarının yavaş-yavaş əriməsi, torpağın oyanması, bulaqların gur səsi ilə birlikdə Şahbuzda Novruzun nəfəsi hiss olunmağa başlayır. Bayramdan həftələr əvvəl kənd evlərində hazırlıq başlayır. Qadınların





təndir başına toplaşıb bişirdiyi şirniyyatların ətri kəndlərə yayılır. İnsanlar bir-birinə qonaq gedir, küsülülər barışır, qapılar hər kəsin üzünə açıq olur, süfrələr paylaşılır. Böyüklər uşaqlara bayram payı verir, yaşlıların xeyir-duası isə bu günlərin ən qiymətli hədiyyəsi sayılır. Kənd meydanlarında bəzən müxtəlif oyunlar, şənliklər keçirilir, saz səsi və milli musiqilər bayram ab-havasını daha da canlandırır. Yumurta toqquşduranlar, qulaq falına çıxanlar, papaq atanlar, tonqal ətrafında oxuyub-oynayanlar bayram axşamına xüsusi rəng qatır. Qulaq falına çıxan subay qızlar, oğlanlar, gəlinlər dilək tutaraq qapı dinləyirlər. Onlar eşitdikləri sözləri diləklərinə uyğun yozurlar. Bayram axşamı hər kəsin evində xoş söhbətlər edilir. Baharın ilk nəfəsi ilə birlikdə bu torpaq yenidən dirçəlir, ümidlər yenilənir və qədim adətlər gələcək nəsillərə miras kimi ötürülür.

Naxçıvanın qədim ruhunu qoynunda saxlayan, adını qəhrəman Babəkdən alan bərəkətli diyara düşdü yolumuz bu dəfə. Elə burada yaşlı nənə-babalarımızın söhbətlərindən süzülüb gələn o xatirələr Novruzun Babək rayonunda necə bir sehrli aləm olduğunu gözlərimiz önündə canlandırdı. Bu yerlərdə Novruzu bir zamanlar "yumurta bayramı" kimi də qeyd edirmişlər. Babək rayonu özünəməxsus "Qatar yumurta döyüşdürmə" qaydası ilə bütün bölgədə məşhur imiş. Həyətbacada isə məğrur xoruzların döyüşü bayramın həyəcanını birə-beş artırar. Çərşənbə axşamı qadınlar su kənarlarında, xüsusən də nazlı söyüdlərin altında niyyət tutarlar. İnanca görə, gecə yarısı suyun bərəkəti ilə söyüd ağacları başını yerə əyib səcdə edir.

Sirab, Qahab, Yarımca və Kültəpə kəndlərinin küçələri isə qədim oyunların sədası ilə dolar. "Qəcəmə" və "İqi" kimi oyunlar gənclərin ən sevimli əyləncəsi sayılar. Tonqallar sönən günün səhəri isə camaat ocağın müqəddəs közünü götürüb evin dörd küncünə, həyətə səpərlər ki, bərəkət və aydınlıq əskik olmasın.

Gecələr xan Arazın laylası ilə yatıb, gündüzləri Haçadağın başından boylanan günəşin işığı ilə al şəfəqə boyanan qədim Culfa diyarına bahar gələndə çiçək açır hər tərəf. Bu qədim elin insanları bir-birinə pay aparıb, pay gətirir. Təzə gəlinlər ata evindən pay gözləyir. Naxçıvanın cənub-şərq pəncərəsi, Arazın nazlı suları ilə qədim tarixin pıçıldaşdığı bir məkandır Culfa... Burada təbiət öz naxışını sıldırım qayalıqların sərtliyi və Haçadağın heybətli sükutu ilə vurub. Amma ilin elə bir vədəsi var ki, o vüqarlı qayalar belə baharın nəfəsi ilə yumşalır, Arazın sahillərinə min bir rəngin çaları səpələnir. Bu, əsrlərin yaddaşından süzülüb gələn, Culfanın hər bir kəndində, hər bir evində müqəddəs bir ayin kimi yaşadılan Novruzun gəlişidir.





Burada hələ də kəndlərdə "ağacqorxutma", "beşdaş" və "küştü" kimi qədim oyunlar unudulmayıb. Kosa və Keçəl libası geyinmiş gənclərin məzəli oyunları küçələrə şənlik qatır, qaranlıq düşəndə isə "papaqatdı" həyəcanı başlayır. Atılan heç bir qurşaq, heç bir papaq boş qaytarılmır. Ev sahibləri onları ən şirin sovqatlarla dolduraraq bayram sevincini hər kəslə bölüşürlər. Məhəllələrdə gənclərin xüsusi bir həvəslə keçirdiyi xoruz döyüşləri və yumurta toqquşdurma yarışları isə bayrama özünəməxsus rəqabət ruhu gətirir. Kimin xoruzu daha dözümlüdürsə, o günün qəhrəmanı da odur.

Həmçinin cavanlar böyüklərin ziyarətinə tələsir, onların xeyir-duasını alırlar. Böyüklər isə uşaqlara bayram payı olaraq boyanmış yumurtalar hədiyyə edirlər.

Bu gün Culfa Arazın sıldırım sahillərində yandırılan ocaqları, Haçadağa boylanan ümidləri və qədimdən qalan qırılmaz adət-ənənələri ilə baharın ulu ruhunu bütün dünyaya pıçıldayır. Novruz bu torpaqlarda, sadəcə, bayram deyil, yaddaşın oyanışı, köklərə qayıdışın təntənəsidir.

Ordubad yurdumun meyvə cənnəti, bəzəyi, incisi. Hər küncündən tarix ətiri gələn qədim diyar. Baharın gəlişi ilə



hüsnünə yaraşıq gələn gözəl yurd. Novruzu burada qarşılasan özünü əsirlərin o üzündə hiss edərsən. Xanı, vəzir-vəkili görüb tarixə səyahət edərsən. Novruz adətlərindən biri də "Xan bəzəmə"dir. "Xan bəzəmə" mərasimi hər il Novruz bayramı günü keçirilir. Novruzda Ordubadda üç gün ard-arda Xan bəzəyirlər. Bir nəfəri Xan seçirlər. Onu əsl xan kimi geyindirirlər. Başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib Xanı oturdurlar. İki nəfər balaca uşaq Xanı yelpiklə yelləyir. Kim istəyirsə, könüllü qulluqçu olur. Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər.

Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. Xan əmr verir. Hərə öz qabiliyyətini nümayiş etdirir. Burada təlxəklər də olur. Onlar Xanı güldürməyə çalışırlar. Xan isə gərək gülməsin. Əgər gülsə, onu suya basırlar, təzə Xan seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər Xan üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır.

Novruzun ənənələrindən biri də gənclərin qız bəyənməsidir. Elin gəncləri xüsusi mərasim olan Xan bəzədilməsinə gəlir və burada arzuladıqları qızı bəyənirlər bu adət ailələr və qohumluq münasibətlərini möhkəmləndirir. Bir sözlə, baharı Ordubadda qarşılasan gülabın ətrinə valeh olub, səməni halvasının, Ordubadın limonlu çayı ilə sucuqla, alananın dadına baxıb baharın ətrini duyursan.

Biz illərlə "Gələn il bu vaxtı bayramı Qarabağda keçirək" arzusu ilə yaşadıq. Artıq 6 ildir ki, bu arzumuz çin olub, yeni arzularımız isə qanad açır Zəngəzura tərəf, bizi ana Vətənə birləşdirən yola doğru süzülür.

**"Şərq qapısı"**





# Prezidentin Sərəncamı qədim Naxçıvanın memarlıq ənənələrinin yaşadılması baxımından böyük əhəmiyyət daşıyır

## Prezidentin Sərəncamı Azərbaycan mədəniyyətinin qorunması və inkişafına əhəmiyyətli töhfə olacaqdır



**İsmayıl HACIYEV**
*akademik*

“Azərbaycan Respublikasının Prezidentinin “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında” 2026-cı il 16 mart tarixli Sərəncamının çox mühüm tarixi əhəmiyyəti vardır. İlk növbədə, mən ziyalılar adından ölkə Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Çünki ölkəmizdə bütün sahələrlə yanaşı, tarix və mədəniyyət abidələrinə də böyük diqqət yetirilir. XII əsr abidəsi olan Möminə xatun türbəsi milli memarlığımızın çox mühüm abidəsidir. Şərq memarlıq abidələrinin incisidir. Əcəmi Naxçıvani tərəfindən yaradılmış Möminə xatun türbəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə, bütövlükdə, İslam aləminin şah əsərləri sırasında mühüm yer tutur. Prezident İlham Əliyevin Sərəncamı ilə abidə yüksək səviyyədə bərpa və restavrasiya ediləcək. Möminə xatun türbəsi bundan sonra da hələ min illərlə insanlara sənətin gözəllik və incəliyini aşılayacaq, xalqımız isə bundan qürur duyacaq. UNESCO siyahısında yer tutan Möminə xatun türbəsinin bərpası ilə bağlı Prezidentin Sərəncamı Azərbaycan mədəniyyətinin qorunması və inkişafına əhəmiyyətli töhfə olacaqdır”.

Bu sözləri “Şərq qapısı”na müsahibəsində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev deyib.

Akademik bildirib ki, Şərq aləmində yaradılan abidələr sırasında Möminə xatun türbəsinin özünəməxsus yeri və rolu vardır ki, bu da Əcəmi Əbubəkr oğlu dühasının böyüklüyündən xəbər verir. Möminə xatun türbəsi məhz Azərbaycanın müstəqilliyini, onun inkişafını təmin edən Şəmsəddin Eldənizin zamanında inşa olunub. Buna görə də bu abidənin olduqca böyük əhəmiyyəti vardır və abidənin bərpa olunması nəsillərarası ənənənin davamı, milli irsə hörmət və ehtiram kimi olduqca təqdirəlayiq bir addımdır. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. İlk növbədə, təbii ki, bu Azərbaycan xalqının milli sərvətidir. Ulu Öndərimiz Heydər Əliyev 1999-cu ilin oktyabr ayında Naxçıvanda rəsmi səfərdə olarkən Möminə xatun türbəsini ziyarət etmiş (14 oktyabr) və orada çıxış edərək demişdir: ***“Bu abidənin qiyməti yoxdur. Çox vaxt, elə bu gün də bunu gözəl memarlıq abidəsi kimi təbliğ edirlər. Bu təbiidir, doğrudan da, belədir. Dağılanlar dağılıb, amma qalanlar içərisində Möminə xatun məqbərəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da, böyük memarlıq məktəbi olduğunu göstərir. Bilirik ki, Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etmir, Şərq aləminin böyük bir hissəsində onun memarlıq üslubu, memarlıq məktəbi davam edib, böyük əsərlər yaradıblar”.***

Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı bu monumental, zərif və gözəllik nümunəsi olan abidəyə ölkə Prezidentinin Sərəncamı ilə ikinci həyat bəxş ediləcək. İsmayıl Hacıyev qeyd edib ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncam zəngin tarixi-mədəni irsimizin mühafizəsi, beynəlxalq miqyasda təbliği və gələcək nəsillərə mükəmməl şəkildə çatdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Təbii ki, bu, tarixinə və milli-mənəvi dəyərlərinə bağlı olan hər kəsi, geniş ictimaiyyəti sevindirən addımdır. Minnətdarlıqla qeyd etməliyəm ki, ölkə Prezidentinin Sərəncamı ilə abidənin bərpası üçün ayrılan vəsait nəticəsində bərpa prosesi uğurla aparılacaq və necə ki 800 ildən artıqdır ki, bu abidə yaşayır və bundan sonra da öz əzəməti, gözəlliyi, monumentallığı ilə Azərbaycan xalqının milliliyini, mənəvi dəyərlərini dünyaya təqdim edəcək.

## Möminə xatun abidəsinə göstərilən dövlət qayğısı ziyalılar tərəfindən alqışlanır



**Elbrus İSAYEV**
*Naxçıvan Dövlət Universitetinin rektoru*

Möminə xatun abidəsinin bərpa və konservasiya işlərinin aparılması ilə bağlı dövlətimizin növbəti addımı, bu abidənin uzun əsrlərboyu Azərbaycan memarlıq və mədəniyyət tarixindəki özünəməxsus xüsusiyyətlərini qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək missiyasını bir daha təsdiq edir. Abidə özünün konstruksiyası və Şərq memarlığının inkişafındakı roluna görə nəinki Azərbaycan, bütün Şərq, hətta Avropa tədqiqatçıları tərəfindən böyük diqqətlə tədqiqata cəlb olunub. Möminə xatun abidəsi bir neçə baxımdan həmişə öz tarixi əhəmiyyətini qoruyub saxlamışdır. Birincisi, abidə türk-İslam mədəniyyətinin nadir incilərindən biri kimi çox yüksək əhəmiyyətə malikdir. Abidə XII əsrdən etibarən Naxçıvan memarlıq məktəbinin əzəmətini və Naxçıvan memarlıq irsinin qüdrətini nümayiş etdirən bir pasportdur, bir tarixi sənətdir.

Abidənin uzun əsrlərboyu bölgədə mövcudluğu, parametrləri və memarlıq konstruksiyası orta əsrlər dövründə Naxçıvan ərazisində dünyəvi elmə nə qədər böyük bir marağın olduğunun göstəricisidir. Çünki Möminə xatun abidəsi, bütövlükdə, riyaziyyat, həndəsə, incəsənət, xəttatlıq məktəblərinin vəhdəti nəticəsində meydana gəlmiş unikal bir abidədir. Abidənin digər əhəmiyyəti onun üzərindəki kufi xətti ilə yazılmış müqəddəs kəlamlardır ki, bunlar, bütövlükdə, Naxçıvanın orta əsr mədəniyyət ruhunun göstəricisidir. Möminə xatun türbəsinin inşasından sonrakı müddətdə həm Azərbaycanın digər bölgələrində, həm Yaxın Şərq ölkələrində, həm də Anadolu ərazisində tikilən abidələrdə Möminə xatun türbəsinin təsirlərini görmək mümkündür. Heç şübhəsiz ki, bu abidənin tikilməsi, eyni zamanda Əcəmi Əbubəkr oğlunun memarlıq şöhrətini təsdiq edən, günümüzə qədər gəlib çıxmış nadir memarlıq abidəsidir.

Əcəmi Əbubəkr oğlunun yaradıcılığı məhz bu abidənin mövcudluğu ilə daha da geniş tədqiqata cəlb olunmaq imkanı verir. Abidə ətrafında araşdırmalar apararkən, əlbəttə, Naxçıvanın orta əsr şəhər mədəniyyətinin inkişafını da tədqiq etmiş oluruq. XII əsrdə ölkəmizdə inkişaf etmiş şəhər mədəniyyəti nümunələrindən biri məhz Naxçıvan şəhəri olubdur və XII əsr Naxçıvan şəhərinin əzəmətini təsvir edən maddi sübut kimi Möminə xatun abidəsini göstərə bilərik.

Möminə xatun abidəsi həm də qadın şərəfinə ucadılmış bir türbədir. Bu türbənin qadın şərəfinə ucadılması da hələ orta əsrlər dövründə qadının cəmiyyətdə, dövlət və ictimai həyatdakı xüsusi önəmini, rolunu təsdiqləyən maddi bir sübutdur. Bu baxımdan, Möminə xatun abidəsinə ölkə başçısının böyük diqqəti, əlbəttə ki, ziyalıların, tədqiqatçıların böyük rəğbətinə səbəb olub. Ona görə ki, bu türbə özlüyündə Azərbaycan mədəniyyətinə, Naxçıvan incəsənətinə, memarlığına verilmiş ən böyük dəyərin ifadəsidir və bu dəyəri Azərbaycan və Naxçıvan ziyalıları böyük minnətdarlıqla qeyd edirlər. Ona görə ki, Möminə xatun abidəsinə qiymət vermək Atabəylər dövrünün, Əcəmi yaradıcılığının, Naxçıvan orta əsr şəhər mədəniyyətinin təntənəsi kimi qəbul edilir. Buna görə də biz bir daha ölkə başçısına dərin minnətdarlığımızı bildiririk ki, abidənin qorunub saxlanılması, konservasiyası üçün belə bir əhəmiyyətli Sərəncam imzalayıb.

Naxçıvan Dövlət Universitetində memarlıq sahəsində kadr hazırlığının aparıldığını nəzərə alsaq, bizim üçün ikiqat sevincdir. Bu abidə, eyni zamanda bizim Memarlıq, Tarix və Filologiya ixtisaslarının tələbələri üçün də hər zaman bir təcrübə məktəbi və təcrübə abidəsi olubdur. Bu abidənin qorunması, konservasiyası işi də bu gün bizim – Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinin şahidliyi ilə həyata keçiriləcək. Bunun həm Abidələrin qorunması ixtisası, həm Muzeyşünaslıq ixtisası, Tarix ixtisası, həm də Memarlıq və Təsviri incəsənət ixtisasları üzrə təhsil alan tələbələrimiz üçün də xüsusi əhəmiyyəti vardır. İnanıram ki, bu abidənin qorunması ilə bağlı imzalanmış Sərəncam daha yeni əsərlərin, məqalələrin və kitabların meydana gəlməsi üçün yeni mərhələnin başlanğıcı olacaqdır.

## Tarixi-mədəni irsimizin qorunmasına dövlət qayğısı



**Pərvin HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin şöbə müdiri*

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış Sərəncama əsasən Azərbaycan memarlığının görkəmli nümunəsi olan Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinin davam etdirilməsi üçün 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə 9 566 000 (doqquz milyon beş yüz altmış altı min) manat vəsait ayrılıb.

Sərəncamla bağlı “Şərq qapısı” qəzetinə açıqlama verən Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət və mədəni irs şöbəsinin müdiri Pərvin Həsənov bildirib: “Ayrılan vəsait sayəsində abidədə aparılan bərpa və konservasiya işləri davam etdiriləcək, türbənin memarlıq bütövlüyünün qorunması, konstruktiv dayanıqlığının möhkəmləndirilməsi və tarixi görkəminin bərpa olunması təmin ediləcəkdir. Bu Sərəncam həm də qədim Naxçıvanın memarlıq ənənələrinin yaşadılması və milli irsimizin qorunması baxımından böyük əhəmiyyət daşıyır. Əminliklə demək olar ki, həyata keçirilən bərpa və konservasiya işləri nəticəsində Möminə xatun türbəsinin möhtəşəm siması qorunaraq gələcək nəsillərə çatdırılacaq, eyni zamanda Naxçıvanın və Azərbaycanın zəngin mədəni irsinin dünyaya tanıdılmasına mühüm töhfə verəcəkdir”.

Dövlət başçısının Sərəncamı ilə abidədə aparılan bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün əlavə maliyyə vəsaitinin ayrılması tarixi-mədəni irsimizin qorunmasına göstərilən diqqət və qayğının davamlı xarakter daşıdığını bir daha nümayiş etdirir.



# Enerji təhlükəsizliyi – milli təhlükəsizliyin strateji dayağı



**Teymur RZAYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

**Müasir dünyada enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin ayrılmaz və strateji əhəmiyyət daşıyan hissəsinə çevrilib. Qlobal iqtisadi proseslərin sürətlə dəyişdiyi, enerji bazarlarında qeyri-sabitliyin artdığı bir dövrdə bu məsələ heç vaxt indiki qədər aktuallıq kəsb etməyib. Prezident İlham Əliyevin XIII Qlobal Bakı Forumunda səsləndirdiyi fikirlər də göstərir ki, enerji təhlükəsizliyi yalnız iqtisadi məsələ deyil, həm də siyasi sabitliyin və beynəlxalq əməkdaşlığın əsas elementlərindən biridir. Dünyada neft və qaz qiymətlərində müşahidə olunan kəskin dəyişikliklər yalnız istehlakçı ölkələr üçün deyil, eyni zamanda istehsalçı və ixracatçı dövlətlər üçün də müxtəlif iqtisadi risklər yaradır.**

Bu baxımdan, enerji bazarında balansın qorunması, qiymətlərin sabit və proqnozlaşdırıla bilən səviyyədə saxlanılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan bu sahədə məsuliyyətli siyasət yürüdən ölkələrdən biridir. Ölkəmiz OPEC+ formatında fəal iştirak edərək qlobal enerji bazarında sabitliyin qorunmasına töhfə verir. Bu çərçivədə Azərbaycanın həyata keçirdiyi siyasət enerji resurslarının səmərəli idarə olunmasına, bazarda tarazlığın təmin edilməsinə və tərəfdaş ölkələrlə əməkdaşlığın genişlənməsinə xidmət edir.

Enerji sahəsində əldə olunan uğurlar Azərbaycan iqtisadiyyatının əsas dayaqlarından birinə çevrilib. Son illərdə ölkədə həyata keçirilən strateji layihələr və investisiyalar enerji sektorunun həm daxili tələbatın ödənilməsində, həm də ixrac imkanlarının artırılmasında həlledici rol oynayıb. Xüsusilə neft və qaz sənayesində aparılan modernləşdirmə işləri, yeni yataqların istismara verilməsi və beynəlxalq əməkdaşlıq layihələri Azərbaycanın enerji resurslarını dünya bazarına çıxarmasını təmin edib. Bu isə yalnız valyuta gəlirlərini artırmaqla kifayətlənmir, həm də iqtisadiyyatın digər sahələrinə – sənaye, nəqliyyat və infrastruktur layihələrinə müsbət təsir göstərir.

Son illərdə Azərbaycan qazına olan tələbatın artması da bunun bariz göstəricisidir. Bir neçə il əvvəl Azərbaycanın təbii qazını alan ölkələrin sayı 12 idisə, hazırda bu rəqəm 16-ya yüksəlib. Bu ölkələrin hamısı Azərbaycan qazını boru kəmərləri vasitəsilə əldə edir. Bu fakt ölkəmizin etibarlı enerji tərəfdaşı kimi beynəlxalq nüfuzunu bir daha təsdiq edir.

Ölkəmiz neft və qazla yanaşı, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı istiqamətində də fəaliyyətini genişləndirir. Bu, Azərbaycanın enerji sektorunu təkcə xam neft və qaz resursları ilə məhdudlaşdırmayan, həm də iqtisadiyyatın digər sahələrini gücləndirən strateji yanaşmanın nümunəsidir.

Son illərdə həyata keçirilən iri layihələr və texnoloji modernləşdirmələr enerji məhsullarının keyfiyyətini artırmaqla yanaşı, onların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini də yüksəldib. Xüsusilə neft-kimya sənayesində əldə olunan nəticələr idxal asılılığını azaldır və yeni ixrac imkanları yaradır. Elektrik enerjisi istehsalında isə müasir texnologiyaların tətbiqi ölkənin enerji təhlükəsizliyini möhkəmləndirir və qonşu ölkələrə ixrac imkanlarını genişləndirir.

Beləliklə, enerji sektorunda şaxələndirmə Azərbaycanın iqtisadi inkişafını daha dayanıqlı edir, həm daxili tələbatı təmin edir, həm də beynəlxalq bazarlarda nüfuzunu artırır. Bu uğurlar, eyni zamanda ölkənin gələcəkdə sosial rifahının və sənaye inkişafının möhkəm təməlini qoyur.

Enerji ixracının coğrafiyasının genişlənməsi Azərbaycanın yalnız milli iqtisadiyyatına deyil, eyni zamanda regional və beynəlxalq enerji təhlükəsizliyinə də əhəmiyyətli təsirini göstərir. Ölkənin neft, qaz, neft-kimya məhsulları və elektrik enerjisi kimi resurslarının Avropaya yönəlməsi Azərbaycanın enerji sektorunu strateji aktora çevirir. Bu genişlənmə Avropanın enerji təchizatında alternativ mənbələrin rolunu artırır və enerji asılılığının diversifikasiyasına töhfə verir. Eyni zamanda Azərbaycan həm etibarlı tərəfdaş, həm də regional enerji infrastrukturunun inkişafına katalizator kimi çıxış edir. Yeni tranzit layihələri və beynəlxalq əməkdaşlıqlar ölkənin iqtisadi və siyasi mövqeyini daha da gücləndirir.

Bütün bunlar göstərir ki, Azərbaycan yalnız enerji resurslarına malik ölkə deyil, həm də qlobal enerji təhlükəsizliyinə real töhfə verən etibarlı tərəfdaşdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl enerji siyasəti ölkəmizin beynəlxalq nüfuzunu artırmaqla yanaşı, milli təhlükəsizliyin möhkəmləndirilməsinə də xidmət edir.



# Həyat mənbəyi olan yaşıllıqlar göz oxşayır

### *Hər bir insan ağac əkməlidir*

Təbiətin yaratdığı gözəlliyi insan yarada bilmir. Amma onu qoruyub mühafizə edəndə, yaşıllıq zolaqlarını genişləndirəndə təbiət daha da zənginləşir. Heç təsadüfi deyildir ki, “Təbiət anadır, onu qoruyaq” sözləri həmişə bir deviz kimi səslənir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanda ətraf mühitin qorunması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayıb. Ulu Öndərin ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi siyasət sayəsində Vətənimizdə yeni meşələr salınıb, bir-birindən gözəl parklar və istirahət guşələri yaradılıb. Ümummilli Lider Heydər Əliyev yaşıllıqların qorunmasından danışarkən deyirdi: ***“Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir”.*** Bu müdrik tövsiyələr təbiətə, o cümlədən meşələrə qayğının bir nümunəsi kimi çox ibrətamizdir. Dahi rəhbər yaşıllıqların salınmasına, ağacların qorunmasına xüsusi diqqət yetirib, özü də ağac əkilməsində iştirak etməklə hər kəsə nümunə göstərib.

Əsası Ulu Öndər tərəfindən qoyulan ekoloji siyasət bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq olunan Dövlət proqramlarının həyata keçirilməsi sahəsində əməli tədbirlər görülür. Bütün bunlar muxtar respublikamızın da əlvan təbiətinin mühafizəsinə əsaslı təminat verir. Ana təbiətin köksünə illər öncə vurulan balta səslərinin yerini yaşıllıqlar qoynunda istirahət edən övladlarımızın şən səsləri əvəz edib. Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da bir övlad kimi qoruyub qayğısına qalıb, qocaman ağacların yerini versin deyə yenilərini əkib, onları böyüdüb ərsəyə çatdırıb. Axı ağac da insan kimi qulluq istəyir. Elə buna görə də xalqımız ağacı yalnız yaşıllıq rəmzi deyil, həm də xalqın sağlamlığının, həyatının vacib şərti kimi qəbul edib. Onlar toplumun birliyi ilə ölkədə ağacların qorunması, onlara qulluq edilməsi arasında daxili əlaqənin olduğunu vurğulayıb. “Barlı ağacın başına dolanarlar” ideyası ilə ömür sürən babalarımız təbiətə, yaşıllığa, ağaca həyat mənbəyi kimi baxıb, ağac əkməyi, ona qulluq etməyi özlərinə mənəvi borc biliblər. Görkəmli təbiətşünas-alim Həsən Əliyevin bu müdrik kəlamı isə daim yaddaşlardadır: *“Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır”.*

### *Yaşıllıqlar göz nuru, həyat mənbəyidir*

İnsanlıq naminə ağaclara qulluq etmək dinimizdə də savab iş sayılır. Bütün bunlarla yanaşı, gələcək nəsil qarşısında daşıdığımız məsuliyyət hissi təbiətə, ətraf mühitə vurulan zərərin azaldılmasını bizim hər birimizə aşılayır. İllərdir ki, ənənə halına gələn yaşıllaşdırma işlərinə hər bir sakin qoşulur və bunun nəticəsidir ki, artıq qədim diyar yaşıllıqlar yurduna çevrilib. İllərdir, ənənə halına gəlmiş bu aksiyalar “Şəhərsalma və Memarlıq İli”ndə də davam etdirilir.

Ötən həftə baş tutan aksiyada “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə gedən avtomobil yolunun kənarında yerləşən Pürcüvar Dövlət Meşəsi ərazisində 6,5 hektar sahədə 6500 ədəd tut və aylant tingi əkilərək meşəsalma layihəsi həyata keçirilib. Bununla yanaşı, 0,3 hektar ərazidə tut toxmacarlığı və qələmkökləndirmə sahəsi yaradılıb, 4000 ədəd iydə və 1000 ədəd üzüm çiliyi əkilib. “Şəhərsalma və Memarlıq İli” çərçivəsində həyata keçirilən tədbirlər, həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planına uyğun olaraq muxtar respublikada yaşıllaşdırma sahələrinin əhatə dairəsi genişləndirilir. Cari il ərzində muxtar respublika ərazisində 485,5 hektar sahədə 76 mindən çox tingin əkilməsi planlaşdırılır.

### *Ümumxalq işi*

Müdriklərimiz deyiblər: “Ağac əkmək, bağ salmaq hünər deyil, onu qoruyub saxlamağı bacarasan gərək”, “Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar”. Onların bu kəlamlarına əməl edən muxtar respublika sakinləri əsas diqqəti insan əlləri ilə ərsəyə gətirilmiş gözəllikləri qorumağa, onlara aqrotexniki qulluq göstərməyə yönəldiblər. Bu qayğının, bu qulluğun nəticəsidir ki, doğma Naxçıvanımız artıq yaşıllıqlar diyarına çevrilib. Bir vaxtlar yol kənarlarındakı ağacları barmaqla saymaq mümkün idisə, bu gün tamam başqa mənzərənin şahidi oluruq. Təkcə Naxçıvan şəhərinin illər öncəki vəziyyəti ilə bu gününü müqayisə etdikdə qeyd olunan faktlar açıq-aydın göz önünə çıxır.

Vaxtilə yolboyu sıralanan ağac kötüklərinin yerində yaşıl, qollu-budaqlı, barlı ağaclar cərgələnir.

**“Şərq qapısı”**



# Gələcəyə hesablanmış siyasət – uzunmüddətli su təhlükəsizliyinin təmini

### Alın təri ilə sulanan torpaq

Qədim Naxçıvan... Tanrının səxavətini əsirgəmədiyi gözəl diyar. Yayda günəşin qucağına sığınan, qışda yerin-göyün buz tutduğu dözümlü torpaq. Sərtdir iqlimi, insanları mülayim, mehriban, zəhmətkeş. Ətəyində sakit axan xan Arazın laylası duyulan, sinəsində Arpaçayın, Gilançayın sədası eşidilən qədim yurdda torpaq kimi su da qızıldan qiymətlidir. Alın təri ilə sulanır bu yurdun hər qarışı. Bu torpaqda ağac əkib bağ salmaq təbiətin sərt üzü ilə mübarizə aparmaq kimidir. Elə ki torpaq suya, insan zəhmətinin bəhrəsinə qovuşdu, hamının üzü gülür. Axı torpaq da canlıdır, onun da dili var. Bu yurda bahar gələndə çaylar da öz ağuşuna sığmır, coşub-daşır, torpağa, onun sinəsində kök salan ağaclara, bitkilərə qovuşmağa can atır.

### Təbiətin bizə bəxş etdiyi...

Naxçıvan Muxtar Respublikasında səth sularının əsasını çaylar və göllər təşkil edir. Belə ki, ərazidə Araz çayı istisna olmaqla səth suları il ərzində 0,61 km³ təşkil edir. Naxçıvan Muxtar Respublikasında çay şəbəkəsi bərabər inkişaf etməyib. Naxçıvançaydan qərbə olan zonada çay şəbəkəsi olduqca zəifdir. Ondan şərqdə isə Zəngəzur dağlarından axan çaylar nisbətən sıx şəbəkə təşkil etsə də, həmin çaylar az suludur. Ərazinin əsas çaylarının ümumi uzunluğu 1750 km, çay şəbəkəsinin sıxlığı isə 0,33 km/km²-dir. Təbiətin bizə bəxş etdiyi çaylar ərazinin suvarma suyuna olan ehtiyacını ödəmədiyi üçün dövlətimiz tərəfindən bir çox böyükhəcmli layihələr həyata keçirilir.

### Baxmayaraq ki...

Qədim diyar səth sularının ehtiyatına görə Azərbaycan Respublikasının digər ərazilərindən geridə qalmasına, çay şəbəkəsinin bərabər inkişaf etməməsinə baxmayaraq, dövlətimiz bu ərazidə yaşayan insanların təsərrüfatla məşğul olması üçün hər cür şərait yaradıb və yaradır. Çay sularından istifadə etmək üçün muxtar respublikada suvarma sahəsində bir sıra tədbirlər həyata keçirilərək, mühüm əhəmiyyət kəsb edən çaylar üzərində müxtəlif həcmdə su anbarları və sututarlar yaradılıb, kanallar çəkilib, su nasos stansiyaları tikilib istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında olan təsərrüfatlardakı əkin yerlərini suvarmaq məqsədilə irili-xırdalı otuza yaxın su hövzələri vardır.

### Dövlət qayğısı ilə insan əlinin yaratdığı...

Qədim Şərur diyarında Ulu Öndərin yadigarlarından biri, “Gümüşgöl” adlanan Arpaçay dəryaçasının sahilində dayanmışam. Küləyin xəfifcə tərpətdiyi ləpələrə, dəryaçanı dövrəyə alan təpələrə baxıram. Düşünürəm, oxuduqlarım, gördüklərim haqqında...

70 illik sovet dönəmində xalqımız və onun sərvətlərinin amansızcasına istismar edilməsinə baxmayaraq, götürülən mənfəətdən ölkəmizin inkişafına heç bir vəsait sərf olunmadığı üçün doğma Azərbaycanımızın bir parçası olan qədim Naxçıvanımızın ucqar dağ kəndləri, indi sərhəd yaşayış məntəqəsi olan yurd yerləri gözdən uzaq, könüldən iraq qalmışdı. Ögey münasibət, laqeydlik üzündən evlərin sırası seyrəlmiş, düzəni pozulmuş, şənliyi dağılmışdı. Ən adi məişət qayğıları məngənəsində əziyyət çəkən adamlar üzü şəhərə və nisbətən həyat ahəngi olan kəndlərə üz tutmuşdular. Ta ki Tanrı o dahini – Heydər Əliyevi bizə bəxş edənə kimi. Ulu Öndərin dövlət idarəçiliyinə gətirildiyi illərdən sonra hər sahədə gözlə görüləcək inkişaf başladı. Bax elə kənd sakinlərinin haqqında əfsanələr danışdığı, hər qarışında insan əməyi, zəhməti, torpaq üçün həyat mənbəyi olan, Arpaçayın sinəsinə qurulan bu dəryaça da dahi rəhbərin uzaqgörənliyi nəticəsində yaradılıb. Həmin dövrdə buna nail olmaq çətin olsa da, o belə bir əhəmiyyətli layihənin həyata keçirilməsinə nail oldu. Bu dəryaça təkcə Şərur rayonuna yox, Kəngərli yurdunun torpağına da nəfəs verir illərdir. 30 ildən artıq bir müddətdə şimal tərəfi düşmənin nəzarətində olsa da, 2018-ci ildə dövlət başçısının “Uğurlu Naxçıvan əməliyyatı” adlandırdığı Günnüt əməliyyatı ilə tamamilə ordumuzun nəzarətinə keçib. Həmin gün həm də Ulu Öndərin yadigarı tamamilə azadlığa qovuşdu. Ulu Öndərin hakimiyyətdə olduğu illərdə Naxçıvanda əkin və içməli suya olan tələbatın ödənilməsi üçün bir neçə böyükhəcmli layihə həyata keçirilib. Belə ki, 1971-ci ildə Araz çayı üzərində Araz dəryaçası, 1977-ci ildə Arpaçay üzərində su tutumu 140-150 milyon m³ olan Arpaçay dəryaçası inşa olunub.

Babək rayonunun Sirab kəndi ərazisində yerləşən Sirab su anbarı isə 1980-ci ildə istismara verilmişdir. Qidalanma mənbəyi Naxçıvançaydan kanal vasitəsilədir. Heydər Əliyev su anbarı istifadəyə verildikdən sonra, əsasən, sol sahil kanalı vasitəsilə qidalanır. Su anbarının ümumi həcmi 12,7 mln m³dir. Anbarın suvardığı sahə 2700 hektardır. Məzrə gölü 1980-ci ildə tikilib istismara verilmişdir. Gölün həcmi 1 mln m³ təşkil edir. Məzrə gölünün suyu ilə 200 hektardan çox əkin sahələri su ilə təmin olunur. 1987-ci ildə Əlincə çayı ilə qidalanan su tutumu 19 milyon m³, sahəsi 6 min hektar olan Bənəniyar gölü inşa olunmuşdur.

Naxçıvançay üzərində tikilən Vayxır su anbarının (indiki Heydər Əliyev su anbarı) layihəsi 1981-ci ildən hazırlanmış, 1983-cü ildə inşaat işlərinə başlanılmışdır. Lakin həmin zaman yaranmış şəraitlə əlaqədar olaraq tikinti işləri başa çatdırılmamışdır. Ulu Öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Vayxır su anbarının tikintisini də gündəliyə gətirmiş və 2002-ci ildə tikinti işlərinin davam etdirilməsinə başlanmışdır. 2005-ci ilin dekabrın 19-da ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev su anbarı istifadəyə verilib. Diqqət etsək görərik ki, Ulu Öndər Azərbaycanda siyasi hakimiyyətə gələnə kimi Naxçıvan Muxtar Respublikasının ərazisində cəmi dörd süni göl yaradılsa da, dahi rəhbərin birinci və ikinci dəfə hakimiyyətə gəldiyi illərdə süni göllərin həm sayı, həm də su tutumu artırılıb. Uzaqgörən liderin nəzarəti ilə inşa olunan sututarları bu gün də zəhmətkeş naxçıvanlıların əkin sahələrinin su ilə təmin olunmasında mühüm rol oynayır.

### İçməli su ilə təminat artıq 100 faiz təşkil ediləcək

Dövlət başçısının 2019-cu il 6 noyabr tarixli “Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında” Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası ərazisində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, əhalinin içməli suya tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması həyata keçirilib. Naxçıvan Muxtar Respublikasında içməli su ilə təminat sahəsindəki problemlərin aradan qaldırılması istiqamətində görülən işlər nəticəsində Naxçıvan şəhəri, Şərur, Şahbuz, Culfa, Ordubad şəhərində əhalinin içməli suya olan təminatı tam ödənilib.

Prezident İlham Əliyev 2021-ci il may ayının 10-da “Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin açılışından sonra ictimaiyyət nümayəndələri ilə görüşündə çıxışı zamanı deyib: ***“Şadam ki, Naxçıvan Muxtar Respublikasında artıq bir neçə şəhər içməli su və kanalizasiya şəbəkəsi ilə təmin edilib – Naxçıvan şəhəri, Şərur, Şahbuz, Culfa, indi də Ordubad şəhəri. Növbəti mərhələdə daha üç şəhərdə – Kəngərli, Babək və Sədərəkdə də içməli su layihələri icra ediləcək. Beləliklə, içməli su ilə təminat artıq 100 faiz təşkil ediləcək. Necə ki vaxtilə təbii qazla və elektrik enerjisi ilə təminat 100 faizə çatdı, bir neçə ildən sonra Naxçıvan Muxtar Respublikasında içməli su layihələri də 100 faiz həll olunacaq”.***

Bu il fevralın 21-də Prezident İlham Əliyevin imzaladığı Sərəncamla “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” təsdiq edilib. 24 fevral 2026-cı ildə bu tədbirlərin davamı olaraq Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncam “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı”na uyğun olaraq Naxçıvan Muxtar Respublikasının bir sıra yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə imzalanıb. 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusu qazılıb əhalinin istifadəsinə veriləcək. Bu sərəncamlar qədim diyarda dayanıqlı su mənbələrindən istifadənin genişləndirilməsi və mövcud resurslardan daha səmərəli yararlanmaq, su təhlükəsizliyinin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Tanrının heç nəyi əsirgəmədiyi bu diyarda zəhmətkeş insanların torpağa qarışan alın təri ilə torpağa atılan hər toxum cücərib böyük qollu-budaqlı ağaca dönür. Bu yerin sakinləri onlara lütf olunan hər nemətin qədrini bilir, bunu özünə borc hesab edir. Akademik Həsən Əliyevin dediyi kimi: *“Saf su, bol günəş, quru iqlim, təmiz hava və ləzzətli meyvələr təbiətin muxtar respublikaya bəxş etdiyi zəngin sərvətidir. Həmin sərvətin qədrini bilmək və ondan səmərəli istifadə olunmasını təmin etmək isə bizim borcumuz və vəzifəmizdir”.*

1990-cı ildən muxtar respublika blokadaya salınsa da, Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə su mənbəyinin qarşısı kəsilsə də, dözümlü və səbirli naxçıvanlılar müqəddəs, əziz torpağını qorudu, Vətənin hər qarışı uğrunda düşmən qarşısında igidliklə dayandı. Ərazi blokada şəraitində olsa belə naxçıvanlılar nikbinliklə yaşayaraq, təbii sərvətlərini qoruyaraq, onlardan səmərəli surətdə istifadə etməyi bacardılar və bu gün də bu missiya davam edir. Çünki burada yerin altı da, üstü də xəzinədir. Bu dəyərli sərvəti isə gələcək nəsillərə çatdırmaq üçün dövlətimiz muxtar respublikada lazımi tədbirləri görür. Bunları görmək isə hər bir naxçıvanlını sevindirir, dövlətimizə minnətdarlıq hissini artırır.

Yurdumuza baharın ilk qədəmlərini atdığı və günəşin suyu, torpağı, yeli istidiyi, kəndlinin ilin ruzisi üçün torpağa toxum atdığı, ting basdırmağa hazırlaşdığı bu günlərdə dövlət başçısının qədim diyarın su təminatı ilə bağlı imzaladığı bu sərəncamlar insanların ürəyinə, necə deyərlər, “su səpdi”. Hər bir zəhmətkeş naxçıvanlının dilindən bu kəlmə eşidildi: “Ömrün su qədər olsun, Ulu Öndərin layiqli davamçısı!”

**“Şərq qapısı”**



Yubileylər ömür karvanının bir-birindən fərqli dayanacaqlarına bənzəyir. Yubilyar hər dayanacaqda arxada qalan yola nəzər salır, bu gününün sevincini, göy qurşağı qədər əsrarəngiz görünən gələcək günlərinin ümidini yaşayır. Naxçıvan Dövlət Universiteti Təbii Ehtiyatlar İnstitutunun baş direktoru, kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Tofiq Əliyev də ömür qatarının 75-ci dayanacağını mənalı həyatının və gərgin əməyinin təntənəsi ilə, şərəflə qarşılayıb ömrünün müdriklik zirvəsini, 75 illik yubileyini qeyd edir.

# 75 yaşlı elm fədaisi, məhsuldar alim



Tofiq Abbasəli oğlu Əliyev 1951-ci il mart ayının 25-də Naxçıvan şəhərinin Əliabad qəsəbəsində qulluqçu ailəsində anadan olub. 1958-ci ildə qəsəbə məktəbində ibtidai təhsilə başlayan Tofiq Əliyev 38 yaşlı atası Abbasəli Əliyevi avtomobil qəzası nəticəsində itirdikdən sonra təhsilini Naxçıvan şəhərində yenicə açılmış internat məktəbində davam etdirib və 1968-ci ildə təhsilini "gümüş" medalla başa vurub. Elə həmin il Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kimya fakültəsinə daxil olub, 1973-cü ildə ali təhsilini başa vurduqdan sonra təyinatı üzrə bir il Saatlı rayonunda müəllim işləyib, 1974-cü ildən isə taleyini Naxçıvan Dövlət Universiteti ilə bağlayıb. O burada baş laborant, assistent, müəllim, baş müəllim, dekan müavini və Kimya kafedrasının müdiri vəzifələrində çalışıb. Professor T.Əliyev 2019-cu ilin oktyabr ayından AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutuna rəhbərlik edir. Bütün bu illər ərzində T.Əliyev istedadlı tədqiqatçı, gözəl pedaqoq, geniş dünyagörüşünə malik ziyalı kimi tanınıb. Pedaqoji fəaliyyətini elmi fəaliyyətlə əlaqələndirməyi bacaran T.Əliyev NDU tarixində ilk dəfə olaraq eksperimental xarakterli tədqiqatlar aparıb, ilk dəfə xarici ölkəyə elmi ezamiyyəyə göndərilib. Tofiq Əliyevin apardığı tədqiqat işlərinin əsas hissəsi böyük elmi-praktiki əhəmiyyət kəsb edən məsələyə – neft və qaz sənayesində istismar olunan polad avadanlıqların korroziya, abraziv və mikrobioloji dağılmadan mühafizəsi məsələlərinə həsr olunub.

O, 1988-ci ildə Azərbaycan Respublikası EA Qeyri-üzvi və Fiziki kimya İnstitutunda Fiziki kimya ixtisası üzrə müvəffəqiyyətlə "xidməti istifadə üçün" qrifinə malik namizədlik dissertasiyası, 2011-ci ildə isə Bakı Dövlət Universitetində Fiziki-kimya və Neft kimyası ixtisasları üzrə "Fenollar, merkaptosirkə və ksantogenat turşularının bəzi funksional törəmələrinin inhibitor təsirinin fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Tofiq Əliyev 1991-ci ildə dosent, 2017-ci ildə isə professor elmi adına layiq görülüb. Professor Tofiq Əliyev 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. Bütün bu illər ərzində Tofiq müəllim hərtərəfli biliyə malik olmaqla milli və mənəvi dəyərlərin mütərəqqi cəhətlərini üzvi şəkildə əlaqələndirmiş, çalışdığı təhsil ocağının ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. O, dəfələrlə Rusiya Federasiyası, Ukrayna və Türkiyənin bir çox şəhərlərində keçirilən beynəlxalq konfrans, simpozium və qurultaylarda iştirak etmiş, maraqlı məruzələri ilə həmkarlarının diqqətini cəlb etmişdir. Onun məqalələri Rusiya Federasiyası, Ukrayna, Hollandiya, Türkiyə, eləcə də respublikamızda nəşr olunan müxtəlif nüfuzlu jurnallarda dərc edilmiş, elmi tədqiqatları istər ölkəmizdə, istərsə də xaricdə yaşayan bir çox tanınmış alimlər tərəfindən yüksək dəyərləndirilmişdir.

Çoxsaylı tədqiqat işləri nəticəsində Tofiq Əliyev əlverişli xammallar əsasında nisbətən sadə üsullarla alınmış və bir neçə aqressiv sistem və polad nümunələri üçün yararlı olan yüksək effektli korroziya inhibitorları təklif etmişdir. Bununla da müxtəlif qruplardan olan birləşmələrin quruluşları ilə effektivliyi arasındakı asılılıqla bağlı T.Əliyevin müəyyən etdiyi qanunauyğunluqlar həmin sahədə olan ziddiyyətli fikirlərə və qaranlıq məqamlara aydınlıq gətirmiş, korroziyadan inhibitor mühafizəsi nəzəriyyəsini daha da təkmilləşdirmişdir. Tofiq Əliyev 2019-cu ilin oktyabr ayından Naxçıvan Dövlət Universitetində pedaqoji fəaliyyətini davam etdirməklə AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutuna direktor vəzifəsinə təyin edilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisində böyük ehtiyatları olan təbii sərvətlərin, mineralların araşdırılması və tətbiqinə dair əməli fəaliyyəti və faydalı məsləhətləri ilə həmkarlarına yaxından köməklik göstərir. Tofiq Əliyevin apardığı tədqiqatlar 180-dən artıq elmi və elmi-metodik əsərdə, o cümlədən 5 kitabda, 1 dərs proqramında, keçmiş sovetlər ittifaqının 1 ədəd "xidməti istifadə üçün" qrifinə malik müəlliflik şəhadətnaməsində, Azərbaycan Respublikasının 2 patentində, çoxsaylı məqalə və tezislərdə öz əksini tapmışdır.

Hərtərəfli elmi potensiala malik olan Tofiq müəllimin yaradıcılığında fundamental elmlərin vəhdəti, elmi araşdırmaların təcrübəyə tətbiqi sahələrində praqmatik qabiliyyət nümayiş etdirir, bu gün də çoxillik məhsuldar yaradıcı fəaliyyəti ilə bu amilləri yüksək səviyyədə davam etdirir.

Son illər muxtar respublikanın mineral sərvətlərinin öyrənilməsi istiqamətində Tofiq müəllimin rəhbərliyi ilə aparılan nəzəri və praktiki tədqiqatlar öz səmərəliliyi ilə fərqlənir. O həmçinin onlarla elmi populyar məqalənin müəllifidir. T.Əliyev müxtəlif vaxtlarda "Şərq qapısı", "Nuh yurdu", "İki sahil" qəzetlərində dərc olunmuş günün aktual məsələlərinə, o cümlədən Azərbaycanın enerji strategiyasına həsr olunmuş məqalələri ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

T. Əliyevə məxsus elmi nəzəri tədqiqatlar öz orijinallığı, praktiki əhəmiyyəti və yeniliyi ilə seçilir. Ömrünün 51 ilini kimya elminin inkişafına həsr etmiş alim, bu elmin analitik xüsusiyyətlərinin ən incə nüanslarının bilicisi, sözün həqiqi mənasında, kimya elminin fədaisidir. Elmi fəaliyyəti dövründə fiziki-kimya sahəsində əldə etdiyi fundamental nəticələr Tofiq Əliyevi təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaq ölkələrdə də geniş miqyasda tanıtmışdır.

Tofiq müəllim kimya elminin sirlərini və öz zəngin təcrübəsini böyük həvəslə gənc nəslə öyrədir, onların elmi işçi kimi formalaşmasında aparıcı rol oynayır. Onun namizədlik dissertasiyalarına rəhbərlik etməsi bunun bariz nümunəsidir. Tofiq müəllim öz qayğıkeşliyi, səmimiyyəti və sadəliyi ilə çalışdığı kollektivin böyük hörmətini qazanmışdır. O öz tabeçiliyində olan əməkdaşların mülahizə və fikirlərinə həmişə çox diqqətlə yanaşır və onları lazımi dərəcədə qiymətləndirir.

Tofiq müəllimin elm və təhsil sahəsində uğurları, elmi-metodik hazırlığının yüksək məhsuldarlığı, təcrübəli pedaqoq olması nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 16 oktyabr tarixli Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülməsi onun əməyinə və elmi fəaliyyətinə verilən qiymətin əyani sübutudur.

Tofiq müəllim həm də gözəl ailə başçısıdır. Onun gözəl tərbiyə edilmiş övladları və nəvələri var. İstedadına və iş qabiliyyətinə yaxşı bələd olduğumuza görə heç şübhə etmirik ki, Tofiq müəllimin bundan sonrakı fəaliyyəti də məhsuldar olacaq, bizləri yeni-yeni uğurları ilə sevindirəcəkdir.

Naxçıvan Dövlət Universiteti Təbii Ehtiyatlar İnstitutu və AMEA Naxçıvan Bölməsinin kollektivi Tofiq müəllimi 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona uzun, sağlam ömür və yeni-yeni yaradıcılıq uğurları arzulayır. 75 yaşınız mübarək, Tofiq müəllim!

**Fizzə MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universiteti Təbii Ehtiyatlar İnstitutunun "Hidrogeologiya və mineral sular" laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent***

**Qorxmaz HÜSEYNOV**
***Naxçıvan Dövlət Universiteti Təbii Ehtiyatlar İnstitutunun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent***

# "Qlobal Pul Həftəsi" çərçivəsində təlimlərə start verilib



Martın 16-da Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyasının birgə təşkilatçılığı ilə "Qlobal Pul Həftəsi" çərçivəsində maarifləndirici təlimlərə start verilib.

Təlimdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova açılış nitqi ilə çıxış edərək "Qlobal Pul Həftəsi"nin əhəmiyyəti haqqında ətraflı məlumat verib. O bildirib ki, Azərbaycan Respublikasının Mərkəzi Bankının "Maliyyə sektorunun inkişafı üzrə 2024-2026-cı illər üçün Strategiya"sında əhalinin, xüsusilə gənclərin maliyyə savadlılığının artırılması prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu çərçivədə 16-22 mart 2026-cı il tarixlərdə Naxçıvan Muxtar Respublikasında müxtəlif təlimlərin keçirilməsi nəzərdə tutulur. Həmin təlimlər Naxçıvanın müxtəlif rayonlarında təşkil olunacaq və gənclərin maliyyə savadlılığının artırılmasına, eləcə də gənclərin daha dayanıqlı maliyyə idarəçiliyinə töhfə verəcəkdir. Müasir dövrdə maliyyə savadlılığı hər bir insan üçün vacib bacarıqlardan biridir və bu sahədə erkən yaşlardan maarifləndirmə işinin aparılması böyük əhəmiyyət daşıyır. Sonda komitə sədri təlim iştirakçılarına uğurlar arzu edib.

Daha sonra Azərbaycan Mikromaliyyə Assosiasiyasının Maliyyə İnklüzivliyi üzrə proqram rəhbəri Sevinc Rüstəmova "Puldan danışaq" ("Smart Money Talks") mövzusunda təqdimatla çıxış edib. Təqdimat zamanı pulun müasir cəmiyyətdə rolu, qənaət vərdişlərinin formalaşdırılması və maliyyə resurslarından səmərəli istifadə ilə bağlı geniş maarifləndirici məlumat verilib. Təlim çərçivəsində gənclərlə birlikdə müvafiq mövzuda viktorina və master-klas təşkil olunub. Təlim daha sonra diskussiya şəklində davam etdirilib.

Qeyd edək ki, "Qlobal Pul Həftəsi" hər il mart ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) koordinasiyası ilə keçirilir. Bu da uşaq və gənclər arasında maliyyə savadlılığının artırılması məqsədilə dünyanın 80-dən çox ölkəsində keçirilən beynəlxalq maarifləndirmə kampaniyasıdır. Bu il də Naxçıvanda "Qlobal Pul Həftəsi" çərçivəsində silsilə təlimlərin təşkili nəzərdə tutulub.

# Əməkdar jurnalist Muxtar Məmmədov növbəti kitabını oxuculara təqdim edib




M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədovun sayca 7-ci kitabının təqdimatı keçirilib. Tədbiri giriş sözü ilə kitabxananın direktoru Tamella Əsgərova açaraq yeni nəşrlərin oxuculara tanıdılmasında belə tədbirlərin əhəmiyyətini vurğulayaraq müəllifi təbrik edib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigar müəllifin "Dünyada nə qədər kitab var belə" adlı yeni nəşri haqqında bəhs edib. Vurğulanıb ki, Muxtar Məmmədov Naxçıvan ədəbi mühitini öz məqalələrində geniş işıqlandıran, resenziyalar yazmaqla yeni nəşrləri oxuculara tanıdan müəllif kimi uğurlu olub. Yeni nəşrdə də esselər, resenziyalar, məqalələr yer alıb. Bəzi resenziyalar şeir kitabları, antologiyalar haqqındadırsa, müəyyən esselər publisistika örnəklərindən ibarət toplulara həsr olunub. Kitabda, həmçinin jurnalistin maraqlı müsahibələrinə də yer verilib. Ümumiyyətlə, nəşrdə təqdim edilən hər bir esse-resenziyaya ideya dolğunluğu qazandıran jurnalistin qələb yanğısıdır.

Filologiya üzrə fəlsəfə doktoru, şair, ədəbiyyatşünas Xanəli Kərimli, NDU-nun Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru Arif Ağalarov, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, Prezident mükafatçısı, yazıçı-publisist Hüseyn Əsgərov, "Şərq qapısı" qəzetinin məsul katibi Ruhiyyə Rəsulova və digər çıxış edənlər müəllifin yaradıcılığından, "Şərq qapısı" qəzetində işlədiyi dövrdə məhsuldar fəaliyyətindən söz açıblar.

Sonda müəllif tədbirin təşkilinə görə minnətdarlığını bildirib və kitablarını oxuculara təqdim edib.



# Taleyi əvvəlcədən səhnəyə bağlanan sənətkar

# Həsən Ağasoy



Bu gün haqqında danışacağımız şəxs Azərbaycan teatr sənətində özünəməxsus yaradıcılıq yolu olan Xalq artisti Həsən Ağasoydur. O artıq uzun illərdir ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində müxtəlif xarakterli obrazlar yaradaraq tamaşaçıların rəğbətini qazanıb. Səhnəyə olan sevgisi və sənətə sədaqəti onu Naxçıvan teatr mühitinin tanınmış simalarından birinə çevirmişdir.

Teatr sahəsində böyük uğurlara imza atan Həsən müəllimlə söhbət etmək qərarına gəldik. O, martın 27-də, Beynəlxalq Teatr Günündə dünyaya gəlib.

Bu maraqlı uyğunluq istər-istəməz insanı düşündürür. Sanki həyatın özü onun taleyini əvvəlcədən səhnə ilə bağlayıb. Çünki doğum tarixinin məhz teatr günü ilə üst-üstə düşməsi, sadəcə, bir təsadüf kimi deyil, həm də taleyin incə bir işarəsi kimi görünür. Bəlkə də, elə buna görədir ki, Həsən Ağasoy illərdir, səhnəyə böyük sevgi və sədaqətlə xidmət edir, yaratdığı obrazlarla tamaşaçıların yaddaşında iz buraxmağı bacarır. Onun yaradıcılığına nəzər saldıqda aydın görünür ki, teatr bu sənətkar üçün yalnız bir peşə deyil, həm də həyatının ayrılmaz hissəsidir. Səhnədə yaratdığı hər bir obrazda zəhmət, məsuliyyət və sənətə olan böyük sevgi hiss olunur. Məhz bu xüsusiyyətlər Həsən Ağasoyu Naxçıvan teatr mühitində seçilən və hörmət qazanan sənətkarlardan birinə çevirib.

Həsən Ağasoy 1958-ci il mart ayının 27-də Culfa rayonunun Gülüstan kəndində anadan olub. 1975-ci ildə Culfa şəhərində orta məktəbi bitirdikdən sonra sənətə olan marağı onu M.A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə gətirib.

Tələbəlik illəri Həsən Ağasoy üçün, sadəcə, ali təhsil mərhələsi deyildi. Bu illər onun yaradıcılıq dünyasının formalaşdığı, səhnəyə olan sevgisinin daha da möhkəmləndiyi bir dövr idi. Gənc tələbə üçün hər dərs, hər məşq, hər tamaşa sənətin sirlərinə bir addım da yaxınlaşmaq demək idi.

Onun sənət yolunun formalaşmasında böyük rol oynayan müəllimlərdən biri Azərbaycan SSR-in Xalq artisti Rza Təhmasib olub. O, tələbələrinə səhnənin məsuliyyətini, obrazın daxili aləmini anlamağın vacibliyini və tamaşaçı ilə qurulan görünməz bağın əhəmiyyətini öyrədirdi. Həsən Ağasoy sonralar həmin illəri xatırlayarkən bildirir ki, bu dərslər onun aktyor kimi formalaşmasında həlledici rol oynayıb.

Eyni zamanda görkəmli şair və dramaturq Hüseyn Cavidin qızı Turan Cavid tərəfindən keçilən dərslər də gənc aktyorun dünyagörüşünün zənginləşməsinə mühüm təsir göstərib. Turan Cavid tələbələrə Azərbaycan teatrının tarixi, klassik dramaturgiya və səhnə mədəniyyəti haqqında geniş biliklər verir, onları milli teatr ənənələrinə daha dərindən bağlayırdı.

Beləliklə, tələbəlik illəri onun həyatında yalnız bir təhsil mərhələsi deyil, həm də gələcək yaradıcılıq yolunun bünövrəsinin qoyulduğu unudulmaz bir dövr kimi yadda qaldı. Bu illərdə qazandığı bilik və təcrübə isə sonralar səhnədə yaratdığı obrazların əsas dayağına çevrildi.

Sənətkarın səhnə fəaliyyəti Çingiz Aytmatov və Kaltay Məhəmmədcanovun birgə qələmə aldıqları "Fudzi dağında qonaqlıq" əsərində canlandırdığı İsa bəy Mergenov rolu ilə başlamışdır. Məhz bu rol gənc aktyorun Naxçıvan teatr səhnəsində özünü təsdiqləməsi üçün atdığı ilk ciddi addımlardan biri olmuşdur. O, səhnəyə hər çıxışında yalnız sözləri səsləndirməyə deyil, obrazın hisslərini yaşamağa, onun taleyini tamaşaçıya hiss etdirməyə çalışırdı.



Həmin illər Həsən Ağasoy üçün həm həyəcanlı, həm də məsuliyyətli bir dövr idi. Səhnəyə hər addım atanda o özünü sanki yenidən kəşf edir, tamaşaçı ilə görünməz bir bağ qurmağa çalışırdı. Bəzən həyəcan, bəzən tərəddüd, bəzən isə ilk uğurların sevinci onun tələbəlik illərinə xüsusi bir rəng qatırdı.

Tələbəlik illərindən sonra sənət yolunda ilk ciddi addımlarını atan Həsən Ağasoy 1979-cu ildə təyinatla Naxçıvan teatrına gəldi. Həmin gündən etibarən teatrın səhnəsi onun həyatında xüsusi bir məna kəsb etməyə başladı. Bu səhnə təkcə işlədiyi yer deyil, həm də düşüncələrinin, hisslərinin və yaradıcılıq axtarışlarının toplandığı bir məkana çevrildi.

Bir qədər sonra gürcü dramaturqu Şota Rokvanın qələmə aldığı "Yaşıl papaq" əsərində Arçil Qordadze rolunda çıxış etməsi onun yaradıcılıq yolunda yaddaqalan mərhələlərdən birinə çevrildi. Uşaq tamaşası olmasına baxmayaraq, bu rol Həsən Ağasoyun səhnə duyumunu və obrazın daxili aləmini təqdim etmək bacarığını daha aydın şəkildə üzə çıxardı. Tamaşaçıların səmimi reaksiyası və sənət adamlarının diqqəti isə gənc aktyora yeni ruh və stimul verdi. Həmin roluna görə o, Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən pul mükafatına layiq görüldü. Tamaşanı izləmək üçün gələn nazirliyin nümayəndəsi Vaqif Əlixanov isə Həsən Ağasoy haqqında belə demişdi: "Azərbaycan teatrında daha bir istedadlı aktyor kəşf etdik".

Həsən Ağasoy üçün teatr heç vaxt yalnız səhnədə söz deməkdən ibarət olmayıb. Hər tamaşada tamaşaçının baxışını, zalda yaranan səssiz həyəcanı duymaq onun üçün ən böyük motivasiya mənbələrindən biri olub. Zaman keçdikcə Həsən Ağasoy Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində yüzlərlə obraz yaradaraq Naxçıvan teatr mühitinin seçilən sənətkarlarından birinə çevrildi. Onun yaradıcılıq yoluna nəzər saldıqda görmək olur ki, bu səhnədə keçən illər, sadəcə, zaman deyil, həm də zəngin sənət təcrübəsi deməkdir.

Aktyorun ifasında iki yüzdən artıq müxtəlif xarakterli obraz tamaşaçılarla görüşüb. Sənətkarın canlandırdığı obrazlar sırasında Hüseyn Cavidin "Ana" əsərində Orxan, Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı"nda Fazil, Nəriman Nərimanovun "Nadanlıq" əsərində Hacı Abdulla, Elçin Əfəndiyevin "Arılar arasında" əsərində Baba, Taleh Həmidin "Yəhya bəy Dilqəm" əsərində Böyükağa, həmçinin Çingiz Aytmatovun "Manqurt" əsərində Yedigey, Hüseyn Cavidin "İblis"əsərində İblis, Lessinqin "Müdrik Natan" əsərində Natan və sair kimi rollarla yaddaşlarda qalıb.

Klassik dramaturgiya nümunələrindən müasir əsərlərə qədər geniş repertuarda çıxış edən sənətkar hər rolunda fərqli bir insan taleyini yaşatmağa çalışıb. Həsən Ağasoy üçün hər obraz yalnız səhnədə canlandırılan bir rol olmayıb. O hər yeni obrazda insan duyğularının müxtəlif çalarlarını kəşf etməyə, obrazın daxili aləmini tamaşaçıya hiss etdirməyə çalışıb. Bu səbəbdən onun yaratdığı obrazlar təkcə süjet xəttinin bir hissəsi kimi deyil, həm də emosional təsiri ilə yaddaqalan səhnə hadisələri kimi xatırlanır. Aktyorun fikrincə, səhnə canlı bir həyat kimidir, burada hər tamaşa yeni bir duyğu, hər rol isə yeni bir dünyadır. Onun sözlərinə görə, aktyor üçün ən böyük mükafat tamaşaçının səhnədə yaşanan hissləri duya bilməsidir. Zalın səssiz diqqəti, tamaşaçıların səmimi reaksiyası, tamaşadan sonra eşidilən təşəkkür sözləri aktyor üçün ən qiymətli dəyərdir. Elə bu qarşılıqlı duyğu, bu görünməz bağ onun səhnəyə olan sevgisini illər keçdikcə daha da möhkəmləndirib. Uzun illər teatr səhnəsində yaratdığı obrazlar və sənətə verdiyi töhfələr Həsən Ağasoyun yaradıcılığının dövlət səviyyəsində də qiymətləndirilməsinə səbəb olub. 1984-cü ildə o, "Naxçıvan MSSR-in Əməkdar artisti" fəxri adına layiq görülərək yaradıcılıq yolunun ilk böyük mükafatını aldı. Beş il sonra, 1989-cu ildə isə onun səhnədəki xidmətləri daha geniş miqyasda qiymətləndirildi və sənətkara "Azərbaycan SSR-in Əməkdar artisti" fəxri adı verildi. Onun sənət yolunda ən yüksək zirvələrindən biri isə 1999-cu ildə qazandığı Azərbaycanın Xalq artisti fəxri adı oldu. Bu titul yalnız bir sənətkarın uğuru deyil, həm də onun illərlə davam edən zəhmətinin, səhnəyə sədaqətinin və tamaşaçı sevgisinin təsdiqi kimi qəbul edildi.

Qeyd edək ki, Həsən Ağasoy 2008-ci ildə teatr sənətinin inkişafına verdiyi töhfələrə görə "Tərəqqi" medalı ilə təltif olunub. 2005, 2010, 2018 və 2023-cü ildə Prezident mükafatına layiq görülmüşdür. Lakin aktyor üçün bu fəxri adlar və mükafatlar, sadəcə, titul və ya rəsmi qiymətləndirmə deyil. Onun fikrincə, hər mükafat səhnəyə olan sevginin, sənətə göstərilən sədaqətin və tamaşaçıya verilən dəyərin bir göstəricisidir. Bu uğurlar onu dayanmağa deyil, əksinə, daha böyük məsuliyyət və yeni yaradıcılıq axtarışlarına sövq edir.

Bu gün də Həsən Ağasoy doğma teatrın səhnəsində fəaliyyətini davam etdirir. Onun yaratdığı obrazlar yalnız tamaşaların yaddaşında deyil, həm də illərdir, həmin tamaşaları izləyən tamaşaçıların xatirələrində yaşayır. Çünki bəzi sənətkarlar var ki, onlar sadəcə, rol oynamır, səhnədə bir dövrün ruhunu, bir insanın hisslərini və bir xalqın mədəni yaddaşını yaşadırlar. Həsən Ağasoyun həyat və yaradıcılıq yolu da məhz belə bir sənət yoludur. Səhnəyə olan sonsuz sevgi, sənətə sadiqlik və tamaşaçı ilə qurulan o görünməz bağ onun yaradıcılığının əsasını təşkil edir. Elə buna görə də o yalnız bir aktyor kimi deyil, həm də Azərbaycan teatr sənətinin yaddaşında iz qoyan sənətkarlardan biri kimi xatırlanır. Bu gün gənc aktyorlar səhnəyə ilk addımlarını atarkən Həsən Ağasoy kimi sənətkarların yoluna baxır, onların keçdiyi yaradıcılıq məktəbindən ilham alırlar. Biz də Həsən müəllimə bundan sonrakı fəaliyyətində uğurlar arzu edirik.

✍ Zəhra VƏLİYEVA

## "Muğamımız məqamımızdır" adlı konsert təşkil olunub

Naxçıvan Dövlət Universitetində Xanəndəlik ixtisası üzrə təhsil alan tələbələr tərəfindən "Muğamımız məqamımızdır" adlı konsert proqramı təşkil olunub.



Orkestr alətləri və dirijorluq və Xalq çalğı alətləri kafedralarının təşəbbüsü ilə baş tutan konsertdə Azərbaycan muğam sənətinin klassik nümunələrindən olan Zabul segah dəstgahı səsləndirilib.

Orkestr alətləri və dirijorluq kafedrasının müdiri, dosent Mübariz Əsgərov çıxışında bildirib ki, kafedranın muxtar respublikada və paytaxtda bir sıra konsertləri keçirilib. Bu konsert ilk dəfə olaraq məhz Xanəndəlik ixtisası üzrə təhsil alan tələbələr tərəfindən təşkil edildiyi üçün xüsusi əhəmiyyət daşıyır.

Xalq çalğı alətləri kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vahid Məmmədov muğam haqqında məlumat verərək qeyd edib ki, Azərbaycan muğamı UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunub.

Konsert proqramı dinləyicilərdə xoş təəssürat oyadıb, alqışlarla qarşılanıb.

## Novruz şənliyi maraqlı anlarla yadda qalıb

Naxçıvan Dövlət Universitetində Novruz bayramı münasibətilə təntənəli şənlik təşkil olunub.

Tədbir qədim ənənələrə uyğun olaraq "Dədə Qorqud" obrazının xeyir-duası və Bahar qızının təbriki ilə başlayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək Novruzun xalqımızın ən qədim, ən əziz bayramlarından biri olduğunu qeyd edib. Bildirib ki, bu gün işğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. Rektor Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafı ilə bağlı görülən işlərdən bəhs edərək qeyd edib ki, bir neçə gün öncə Prezident cənab İlham Əliyevin tarixi abidələrimizin bərpası üçün ayırdığı vəsait Naxçıvanın köklü dəyərlərinə göstərilən diqqətin bariz nümunəsidir.





Ardınca Novruzun əsas atributlarından olan bayram tonqalı alovlandırılıb. Səsləndirilən musiqi nömrələri tədbirə xüsusi rəng qatıb. Bayram şənliyi yüksək əhvali-ruhiyyə ilə başa çatıb.

# Mən səmanın dualara açılan qapısıyam



Uzaqdan baxanda mənə parıldayan firuzəyi bir daşı xatırladırsan. Çalaların, əzəmətin, cizgilərin hər dəfə məni heyran etməyi çox yaxşı bacarır. Çox zaman isə sənin sükutunda təsəlli tapmaq, daxili bir hüzura qovuşmaq üçün ziyarətə gələnləri görürəm. Günəşin süzülən şəfəqləri sanki sənin üzərindən onlara nur ələyir. Nəhayət, bu gün Nuh Peyğəmbərin izləri ilə yoğrulmuş bu məkanı, Naxçıvanın Tac-Mahalını ziyarət etməyə getdik. Klassik Şərq memarlığının incə cizgilərini özündə birləşdirən, Cənubi Qafqazın ən böyük ibadətgahlarından biri olan mənəvi birlik məkanı, Heydər məscidindəyik.

Addım-addım sənə yaxınlaşıb o müqəddəs qapıdan içəri daxil olanda qəlbimizin mənəvi bir saflıq və hüzur tapdığını hiss edirik. Ramazan ayında bizləri öz ağuşuna qonaq etdiyin kimi, bu müqəddəs gecələrdə göy üzünün hilalını və ulduzlarını da öz başının üzərində qonaq edirsən. Sanki səma bütün gözəlliyi ilə sənin nuruna şərik olur. Naxçıvanın bu müasir ziyarətgahı elə bil, Əshabi-kəhf sükunətini şəhərin mərkəzinə gətirir. İnsanı hər tərəfdən ağuşuna alan dərin dincliyin içində ucalan bu abidə indi öz daxili səsi ilə pıçıldamağa başlayır və bizi öz hekayəsini dinləməyə dəvət edir:

“Mən, Naxçıvanın müasir simasına vurulmuş ən zərif möhür, Ulu Öndər Heydər Əliyevin adını daşıyan, onun xatirəsinə ucaldılan sülh və inam məkanıyam. Mən, bu diyarın qonaqpərvər qucağında yüksələn, qapısı hər könülə açıq olan bir mənəviyyat yurduyam. Gənc bir abidə olsam da, ruhumda əsrlərin memarlıq ənənələrini və xalqımın sarsılmaz inancını yaşadıram. Hər səhər günəş yurdumuzun üzərinə doğanda, mən ilk şüaları minarələrimlə, daş yaddaşıma ən gözəl nəğmə kimi həkk olunan “Amin” sədaları ilə qarşılayıram. İçəriyə doğru addımlayan hər kəs o möhtəşəm çılçırağın işığında öz daxili aydınlığını tapır. Divarlarımdakı naxışlar, sənətkar əməyi ilə işlənmiş hər bir detal Azərbaycan ruhunun zərifliyini pıçıldayır. İnsanlar şəhərin uğultusunu, gündəlik qayğılarını kənarda qoyub dərdlərini, sevinclərini, arzularını mənlə bölüşürlər. Həmin an mən bir divar olmaqdan çıxıb onların ruhuna toxunan canlı bir sirdaşa çevrilirəm. Elə bugünkü sirdaşım da sən olduğun kimi.

Bilirsənmi, bu günlərdə mənim qübbəmin altında tamam başqa bir həyəcan, tamam başqa bir doğmalıq var. On bir ayın sultanı olan Ramazan qapımı döydüyü andan etibarən, mən, sadəcə, bir abidə deyil, hər kəsi eyni süfrə başında, eyni dua xəttində birləşdirən bir könül mərkəzinə çevrilmişəm. Bu müqəddəs ay şəhərə sanki xüsusi bir hüzur gətirir. İnsanlar iftar vaxtı yaxınlaşdıqca mənə üz tutub, orucun verdiyi mənəvi saflığı birgə dualarla taclandırırlar. Uca minarələrimdən yüksələn azan səsi Naxçıvanın axşam səmasına yayıldıqca elə bil, göy üzü yerlə pıçıldaşır. Ay işığı firuzəyi günbəzimə toxunanda isə mən sanki bir dəniz kimi bu səmada dalğalanıram.

Mən bu divarlar arasında hər gün minlərlə taleyin pıçıltısını eşidir, hər səcdədə torpağa ələnən ümidləri qəlbimə yığıram. Ramazanın ilk günündən etibarən daxilimdəki sükunət hər ötən gün bir az daha dərinləşir, hər iftar vaxtı açılan əllər mənim mənəvi bünövrəmi hər keçən gün daha da möhkəmləndirir. Lakin mənim sükunətimin elə bir zirvəsi var ki, o gecə daşlarım belə həyəcandan titrəyir. Bu, min aydan daha xeyirli olan, bəşəriyyətin taleyinin nurla yazıldığı Qədr gecəsidir. Qədr gecəsində mən bir ibadətgahdan daha çox, ümidin mərkəziyəm. Mən o mübarək gecədə edilən hər duanı qat-qat böyüdüb göylərə çatdıran mənəvi bir vasitəyə çevrilirəm.

Səhər mehi əsməyə başlayanda divarlarımdakı hər bir naxış, hər bir daş gecə boyu edilən o səmimi dualardan, tökülən göz yaşlarından payını alıb yenidən canlanır. Sabaha qədər davam edən o ilahi oyaqlıq hər bir möminin qəlbindəki qaranlığı işıqlandıran bir məşələ çevrilir.

Mən bu ayda, sadəcə, bədənlərin deyil, ruhların da iftar etdiyi bir limanam. Bir xurmanı, bir stəkan suyu və ya sadəcə, bir təbəssümü paylaşmaq, bu mübarək ayın mənim daş divarlarıma hopdurduğu, unudulmayan bir ayə səsidir kimidir. İnsanlar bir-birinə mərhəmət göstərdikcə sanki mənim soyuq daşlarım da o səmimiyyətlə isinir və bu müqəddəs anlar mənim mənəvi yaddaşımda silinməz bir naxışa çevrilir…”

**Səmayə RƏSULOVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***



# Fırça ilə öz dünyasını quran Aysu

Culfa rayonu, Yaycı kəndində yaşayan sağlamlıq imkanları məhdud Aysu Zeynalovanın boyalarla yaratdığı möhtəşəm əl işləri, sadəcə, rəsm deyil, tükənməz ümidin, sarsılmaz iradənin rənglərlə yazılmış hekayəsidir. O, fiziki çətinliklərə baxmayaraq, rənglərin sehrindən istifadə edərək öz dünyasını qurur, sanki səssiz bir mübarizənin içərisindədir. Rəsm çəkərkən onun hər fırça toxunuşunda əzmkarlıq hiss olunur, ən əsası, duyulur. Gözlərində olan işıltı onun həyatının çətinliklərlə başladığını, lakin bu çətinlikləri qaranlıq kimi deyil, rənglər üçün fon kimi qəbul etdiyini göstərir. Aysu üçün boyalar onun dili, kətan isə ürəyinin aynasıdır.

İlk rəsm əsərinin güllü qapı olduğunu deyir Aysu Zeynalova. Onun üçün ən müqəddəs əsəridir ilk yaratdığı əl işi: “Bu sənətə hobbi kimi başlamışam 4-5 yaşımda. Müəllimim olmayıb, sadəcə, rəsm çəkməyə marağım çox idi. Daha çox təbiət rəsmləri çəkməyi xoşlayırdım, zaman keçdikcə bunun öhdəsindən gəldiyimi gördüm”.

Aysunun fırça ilə yaratdığı rəsmlərə baxanda insan ilk olaraq gözəllik görür. Lakin bir az diqqət yönəltdikdə o gözəlliyin arxasında böyük zəhmət, səbir, əzm, mübarizə olduğunu anlayırsan. Deyir ki, bəzən bir rəsmi ərsəyə gətirmək 5-10 gün vaxt aparır. Onun üçün hər fırça toxunuşu fiziki, eyni zamanda mənəvi bir səy tələb edir. Buna baxmayaraq, yorulmur, rəsm onun üçün, sadəcə, məşğuliyyət deyil, yaşam tərzidir: “Rəsm çəkərkən yorulmuram, bundan zövq alıram. Əvvəllər sulu boya ilə çəkirdim, sonradan yağlı boyaya keçdim. Yağlı boyada rəsmlər daha canlı görünür, insanı daha çox cəlb edir. Çəkdiyim rəsmlərlə bir çox sərgilərdə iştirak etmişəm, qalib adını qazanmışam, mükafatlara layiq görülmüşəm. Bu rəsmlərin arasında ən çox bəyəndiyim yağlı boya ilə çəkdiyim pişik rəsmidir”.



Kiçik yaşlarından bu sənəti sevən gənc rəssamın ən böyük xəyalı isə portret çəkməkdir. Deyir ki, əslində, belə rəsmləri də çəkir, ancaq bəzən çətinliklə üzləşir: “Ən böyük xəyalımdır portret çəkmək. Bunun üzərində çalışıram. Lakin bəzən alınmır, buna baxmayaraq, ruhdan düşmürəm. Əsas çətinliyim portret çəkərkən kölgə verməkdir, indi onun üzərində çalışıram. İnanıram ki, qısa vaxtda bunun da öhdəsindən gələcəm”.

Sağlamlıq imkanlarının məhdud olmasına baxmayaraq, fırçanı əlinə aldığı an sanki bütün sərhədlər onun üçün aradan qalxır, boyalar onun üçün azadlıq rəmzinə çevrilir. Kətan qarşısında o artıq məhdudiyyətlərlə deyil, xəyallarla yaşayır. Rənglərin çalarlığı onun xəyallarında dünya yaradır: parlaq sarılar onun ümidinə, dərin mavilər arzularının sonsuzluğuna, al-qırmızılar isə ürəyindəki gücə, cəsarətə çevrilir. Hər xətt, hər kölgə onun daxili dünyasının bir parçası olur. Anası Xatirə Tağıyeva deyir ki, Aysuda xəstəlik 2 yaşından özünü büruzə verib: “Həmin yaşdan etibarən ağrıları olmağa başladı və revmatoid artrit xəstəliyi olduğu müəyyənləşdi. 5 yaşından isə rəsm çəkməyə başlayıb, buna uşaqlıqdan hədsiz dərəcədə marağı var idi. Məktəbdə keçirilən tədbirlərdə, Naxçıvanda keçirilən sərgilərdə iştirak edib, diplom və mükafatlara layiq görülüb. Qızımın çəkdiyi rəsmlərin hər biri bizim üçün ayrı bir dünyadır”.

Doğrudan da, Aysunun fırçasından çıxan rəsmlərdə parlaq çalarlar sevincini, sakit tonlar düşüncələrini, kəskin xətlər isə mübarizəsini ifadə edir. Onun yaratdığı hər rəsm, sadəcə, şəkil deyil, bir həyat dərsidir. Onun boyalarla yaratdığı hər bir rəsm, sadəcə, bir əsər deyil, həm də cəmiyyətə ünvanlanan bir mesajdır: “Məni məhdudiyyətlərimlə deyil, bacarığımla tanıyın”. Bu mesaj həm təsirli, həm də düşündürücüdür: insanın həqiqi gücü bədənində deyil, ruhundadır. Qəlbdəki arzusu, ruhu ilə bizə hədiyyə etdiyi rəsmdəki kimi...

Belə gənclərə dəstək olmaq, onların yaradıcılığını qiymətləndirmək və cəmiyyətə tanıtmaq hər birimizin borcudur. Çünki onların uğuru təkcə şəxsi deyil, həm də insan iradəsinin qələbəsidir.

✍ **Ceyhun MƏMMƏDOV**



# “57 bazarı”nda satıcıların Novruz həyəcanı



Bu dəfə yolumuzu yenidən Naxçıvan şəhərinin ürəyi sayılan, xalq arasında “57 bazarı” kimi tanınan həmin canlı və qaynar məkana saldıq. Novruz bayramı ərəfəsində şəhərin ritmi sanki bu bazarla döyünür. Hər kəs alış-verişdə, hər kəs bayrama hazırlıq həyəcanındadır. Hiss olunur ki, bu sadəcə, adi bir gün deyil, baharın gəlişinə sayılı günlərin qaldığı, ümidlərin, niyyətlərin və ənənələrin canlandığı bir vaxtdır.

Bazarın meyvə-tərəvəz satılan bölümünə daxil olan kimi rənglərin, qoxuların və səslərin ahəngi adamı öz sehrinə salır. Bir tərəfdə təravəti ilə gözoxşayan yamyaşıl göyərtilər, səliqə ilə düzülmüş çərəzlər, sarı-qırmızı çalarlarda parıldayan bibərlər, qıpqırmızı narlar və al-əlvan almalar… Bir az kənarda isə qızılı rəngə çalan armudlar günəş işığında sanki daha da parlaqlıq qazanır. Amma bu rənglərin hər biri artıq təkcə məhsul deyil, süfrələrə gedəcək, səməni ilə yanaşı düzüləcək, bayram axşamlarının bəzəyinə çevriləcək nemətlərdir.

Şübhəsiz ki, bazarın xüsusi guşələrindən birində Novruzun ruhunu daşıyan səmənilər yer alıb. Balaca qabların içində boy atmış o zərif, yamyaşıl səmənilər sanki baharın canlı rəmzi kimi insanlara göz qırpır. Onların üzərinə bağlanmış qırmızı lentlər, qoyulmuş şamlar, bəzən isə xırda bəzəklər bu sadə bitkini bir bayram simvoluna çevirir, ona bir məna yükləyir. Hər kəs səməni seçərkən sanki təkcə bir bəzək əşyası almır, evinə bolluq, bərəkət və yeni başlanğıcların ümidini aparır. Satıcıların səməniləri təqdim etməsi də ayrıca bir mənzərədir. Elə hiss olunur ki, onlar sadəcə, satış etmir, bayramın bir parçasını insanlara ötürürlər. Bir tərəfdə isə bu qarışıq rənglərin və uğultuların içindən bir səs yüksəlirdi: “Gəl ay müştəri, Ordubad sucuğundan qalmadı!” Bu çağırışlar bazarın ayrılmaz musiqisinə çevrilib. Digər tərəfdə isə satıcılar bizi mehribanlıqla öz piştaxtalarına səsləyir, hərəsi öz məhsulunu göstərmək üçün sanki yarışa girir. Bu yarışda qazanan isə təkcə alıcı yox, bayramın özüdür.

Havada yalnız ticarətin deyil, bayramın qoxusu var. Təzə bişmiş şirniyyatların, çərəzlərin, təzə göyərtinin qoxusu bir-birinə qarışaraq sanki Novruzun gəlişini xəbər verir. Hər kəsin əlində torbalar, ürəyində isə bayram sevinci var. Bayram təbriklərinin havada uçuşduğu bir vaxtda, Naxçıvan bazarı da bu təbriklərə özünəməxsus axıcılığı və ahəngi ilə qoşulur. “Bayramınız mübarək!”, “İlaxır çərşənbəniz xeyirli olsun!” kimi sözlər insanların sədası arasına qarışaraq bu məkanı daha da canlandırır. İnsanların üzündəki təbəssüm, satıcıların səmimi münasibəti bizim də üzümüzdə bir gülüş yaradır. Bu gülüşlər Novruzun gətirdiyi birlik, paylaşma və sevinc hissinin təzahürüdür. Bir kənarda dayanan satıcı dayı bizi səsləyib hansı mediadan gəldiyimizi soruşur, “Şərq qapısı” cavabını eşidən kimi isə üzündə xüsusi bir ifadə yarandı: “Şərq qapısı” çoxdanın qəzetidir, yaşı çoxdur...” Bu sözlərdə bir hörmət, bir yaddaş, bir bağlılıq var. O an hiss etdik ki, bu qəzet insanların yaddaşında yaşayan bir tarixdir. İndi o tarix məhz belə bayram günlərində, xalqın içində daha canlı hiss olunur.

Bazar getdikcə daha da dolur. İnsan axını artdıqca piştaxtalara yaxınlaşmaq belə çətinləşir. Satış sürətlənir, boşalan yerlər dərhal yenidən dolur. Sanki hər kəs bayram süfrəsini daha bol, daha bərəkətli etmək üçün tələsir. Sonuncu dəfə bu məkana çəkiliş üçün fotomüxbirimiz Zülfüqar Qurbanlı ilə bazarın çölündə yerləşən gecə bazarını çəkmək üçün gəlmişdik. O zamanın sakit, amma özünəməxsus sehrli atmosferi hələ də yaddaşımızdadır. Bu gün isə başqa bir heyətlə, fotomüxbirimiz Amin Əjdərli, videoqrafımız Səhnə Tağızadə və qələm yoldaşlarımla birlikdə eyni məkana yenidən qayıtmışdıq. Düzünü desəm, burada dəyişməyən bir şey var idi: insanların isti münasibəti. Amma bu dəfə həmin səmimiyyət bayramın verdiyi sevinc ilə daha da artmış, ikiqat mehribanlığa çevrilmişdi. Naxçıvan bazarı bu gün, sadəcə, satış keçirilən bir məkan deyildi… Novruzun nəfəsini daşıyan, baharın gəlişini hər küncündə hiss etdirən, insanların sevincini bir-biri ilə paylaşdığı canlı bir səhnəyə çevrilmişdi. Burada hər addımda hiss olunurdu ki, bayram artıq qapıdadır...

**Rafiq TƏHMƏZ**

***Fotolar: Amin Əjdərli***

# 100 illik yolun 41 illik yorulmaz yolçusu



1926-cı ilin 17 martında Naxçıvan və naxçıvanlıların həyatında mühüm bir hadisə baş verdi. Naxçıvanın telefonlaşdırılması haqqında verilən qərarla qədim diyarın bir neçə ərazisində telefon xətlərinin çəkilməsinə başlanıldı. Həmin gündən artıq 100 il keçir. Bu gün qədim diyarın ən ucqar dağ kəndlərindən belə dünyanın istənilən nöqtəsi ilə rabitə əlaqəsi yaratmaq mümkündür. Ömrünün 41 ilini rabitə ilə bağlayan Ehtiram Yasinov 1985-ci ildən Naxçıvan şəhər ATS-də işləməyə başlayıb. İllərdir, insanların ev telefonları ilə bağlı qarşılaşdığı problemləri briqadalara çatdırır.

Onunla iş başında həmsöhbət oluruq: “Dünya yaranandan insanlar müxtəlif yollarla bir-biri ilə əlaqə yaratmış, səsini, deyəcəyi sözü çatdırmışlar. Dövr dəyişdikcə insanların ünsiyyət vasitəsinin həm forması, həm də qaydası dəyişib, müasirləşib. Mən bu işə başlayanda Naxçıvan şəhəri ilə rayon mərkəzləri arasında kabel xətləri çəkilmiş rabitə əlaqəsi artıq nizama salınmışdı. Həmin dövrdə indiki kimi asan deyildi bu işlə məşğul olmaq. Beş min nöqtəyə nəzarət etmək işçilər üçün çətin olsa da, biz bunun öhdəsindən gəlirdik. Ən çətin günləri isə 90-cı illərdə yaşadıq. Soyuq, şaxtalı qış günlərində, sərhədimizdə döyüş getdiyi bir vaxtda ən vacib məsələ xəstəxanaların, polis şöbələrinin, yanğınsöndürmə idarələrinin telefon xətlərinə nəzarət edilməsi idi. Çox çətinliklər olsa da, öhdəsindən gəldik, harada qəza baş verdisə və ya qəsdən qəza yaradılıb rabitə əlaqəsi kəsildisə, oraya müdaxilə edib rabitə xətlərini bərpa edirdik”.

Müsahibim onu da qeyd edir ki, müasir dövrdə mobil telefonların istehsalı ilə ev telefonlarının istifadəsi azalsa da, bir çox insanlar hələ də öz doğmaları ilə əlaqəni ev telefonu ilə qurur. Ömrünün 41 ilini bu işdə keçirən, hazırda “Naxçıvan Telekom” MMC Naxçıvan şəhər şöbəsinin texniki xidmət mütəxəssisi kimi çalışan Ehtiram Yasinov onu da qeyd edir ki, müasir dövrdə rabitə xətlərinə nəzarət həddindən artıq asanlaşıb. Rabitə xətlərində baş verən hər hansı bir qəzaya daha tez və asan yolla müdaxilə olunur. İnsanların bu sahədə yaşadıqları çatışmazlıqlar öz həllini tapır. Dövlətimiz hər sahədə olduğu kimi, bu sahədə də mühüm işlər görür. Biz də öz işimizdə bu qayğını hiss edirik.

100 il bundan öncə ilin bu günündə verilən qərarla insanların evinə çəkilən telefon xətlərinə gələn zəngdə ilk arzular “Xeyir xəbərlər eşidəsiniz” oldu. Bu gün qədim diyarın uca dağlarının başına dolanıb, uzaq yollardan keçib çəkilən telefon xətləri vasitəsilə doğmalarının səsini duyan insanların hər birinin evində telefon səsi eşidiləndə hər kəs uzaqları yaxın edən zəhmətkeş rabitəçilərə minnətdarlıq hissi duyur.

**“Şərq qapısı”**

# 14 yaşlı idmançımız böyüklərin ölkə çempionatında mükafatçı olub




Ağırlıqqaldırma üzrə Azərbaycan çempionatı keçirilib. Şuvəlan Ağırlıqqaldırma Mərkəzində reallaşan yarışda paytaxt və bölgələrimizi təmsil edən 80-ə yaxın idmançı medallar uğrunda mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikasından çempionatda Əməkdar məşqçi Şəfi Hüseynovun rəhbərliyi ilə “Şərur UGİM” komandasının idmançısı Fəxrəddin Allahverdiyev iştirak edib.

Fəxrəddin kişilər arasında 88 kq çəki dərəcəsində çıxış edib. İlk dəfə olaraq böyüklər arasında gücünü sınayan yeniyetmə idmançı çətin mübarizəni ilk üçlükdə tamamlaya bilib. Belə ki, Fəxrəddin Allahverdiyev iki hərəkətin cəmində 255 kq (115+140) nəticə ilə bürünc medala sahib çıxıb.

Xatırladaq ki, 14 yaşlı idmançımız bundan öncə yeniyetmələr arasında 3 dəfə Azərbaycan birincisi olub.

## Elan

Naxçıvan şəhəri, Naxçıvan Bələdiyyəsi Naxçıvan şəhəri 48-ci məhəllənin 2-ci, 3-cü və 5-ci döngələrində cəmi 660 metr uzunluğunda yolun qaşınıb düzəldilməsi və möhkəmləndirilməsi üçün müsabiqə elan edir.

Müsabiqədə iştirak etmək istəyən şirkətlər 16.03.2026-cı il tarixdən 19.03.2026-cı il tarixədək Naxçıvan şəhəri, Naxçıvan Bələdiyyəsinə müraciət edə bilərlər.

**Ünvan: Naxçıvan şəhəri, Kazım Talıblı küçəsi, ev 20**

**Əlaqə telefonu: 050-633-21-01**

## *İtmişdir*

Şərur rayonu, Axaməd kənd sakini Qəribov Qərib İbrahim oğlunun adına olan JN-058A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kənd sakini Qəribov Qeys İbrahim oğlunun adına olan JN-207A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Mahmudov Oleq Həmid oğluna məxsus Culfa şəhəri, 2-ci küçə, ev 17, mənzil 3 ünvanındakı mənzilin 553 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Həsənova Həcər Həsən qızının adına olan JN-0089 nömrəli, 10213068 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunda yaşamış Həsənova Nubar Həsən qızının adına olan JN-0090 nömrəli, 10213068 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Quliyev Elnur Famil oğlunun adına olan “Qurtuluş” Yaşayış Kompleksindəki bina 95, ev 54-ün tikinti haqqında 11 sentyabr 2024-cü il tarixdə verilmiş 95/54 nömrəli müqavilə itdiyindən etibarsız sayılır.

***

Şirinov Əli Şahin oğlunun adına olan SX-0925920 seriya nömrəli əsgərin hərbi bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 63

Nömrəyə məsul: Ceyhun Məmmədov, Günay Hacıyeva, Rafiq Təhməzov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.